

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

Sayı: 32 (24.467)
23 avqust 2025-ci il, şənbə

ŞƏRQ QAPISI

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Azərbaycanı gələcəyə aparan qoşa addımlar



*Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Vətənə xidmət fəlsəfəsinin təməlində xalqına sonsuz sevgi, Ulu Öndər Heydər Əliyev ideyalarına sarsılmaz inam və Prezident İlham Əliyevin müstəqil siyasətinə yüksək sədaqət hissləri dayanır. Xeyirxahlığına, yüksək bacarığına, diqqət və qayğısına görə hamının hörmətini, məhəbbətini qazanmış Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır.*

O, Azərbaycan naminə gördüyü bütün işlərə qəlbinin sevgisini qoyur, nəcib əməllərində, nail olduğu xoş nəticələrdə bu sevgi görünür, duyulur, hiss edilir. Ona görə də apardığı işlər bu qədər uğurlu alınır. Azərbaycan vətəndaşı ona ailəsinin yaxın bir üzvü kimi yanaşır və bu yanaşmasında haqlıdır, çünki hər bir Azərbaycan vətəndaşının evində, ocağında Mehriban xanımın sevgisinin, qayğısının, bu yurdun insanlarına həssas münasibətinin işığı var. Mehriban Əliyeva köməyə ehtiyacı olan insanlara doğmalarından artıq həyan, kimsəsizlərə arxa-dayaq, yaşlısına qayğıkeş övladdır.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva ömrünün hər bir məqamında Azərbaycan qadını adına sadiqdir, ömür-gün yoldaşına dövlətimiz naminə gördüyü işlərdə ardıcıl dəstəyi, fədakarlığı, Vətən üçün böyüyüb boya-başa çatdırdığı xeyirli övladları ilə də nümunədir. *"İnsan doğularkən verilən ad onun bütün taleyinə təsir göstərir. Deyə bilmərəm, bu nəzəriyyə real həyatda özünü nə dərəcədə doğruldur, amma yaxşılıq, mərhəmət kimi anlayışlar mənim üçün, həqiqətən, ümdə anlayışlardır. Hər zaman öz fəaliyyətimdə çalışmışam ki, bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətdir"* deyən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ulularımızdan bizə miras qalan ali mənəvi dəyərləri öz fəaliyyətində yaşatmaqla həyatını xalqına həsr edən insanların, ziyalıların yolunu uğurla davam etdirir.

Hazırda dünyanın nüfuzlu mətbuat orqanlarında fondun reallaşdırdığı layihələrlə bağlı tez-tez dərc olunan materiallar Mehriban xanım Əliyevanın fəaliyyətinin beynəlxalq aləmdə nə qədər diqqətlə izləndiyini və böyük rəğbətlə qarşılandığını göstərir. Azərbaycanın birinci xanımı bütün dəyərli vaxtını, enerjisini məhz insanların nicatına, rifahına, firavanlığına xidmət edən layihələrə yönəldir. Çünki insan amilinin yüksəlişinə hesablanmış bu layihələr, ilk növbədə, Heydər Əliyev ideyalarına sədaqətin, Azərbaycan Prezidenti İlham Əliyevin vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin təzahürüdür.

Azərbaycan xalqı Prezident İlham Əliyevi və Mehriban Əliyevanı uzun illər müxtəlif ictimai situasiyalarda daim bir yerdə görməyə adət edib. Bu birliyin dərin qatlarında mənəvi və siyasi baxışlar ayrılmaz vəhdət təşkil edir. Prezident İlham Əliyevin və Mehriban xanımın daim yanaşı olması, dövlət tədbirlərində birlikdə iştirak etməsi, sadəcə olaraq, mədəni dünyanın qəbul etdiyi davranış modelinə hörmət əlaməti kimi başa düşülmür. Onun daha böyük mənası və ictimai dəyəri dərin birlik, həmrəylik nümunəsi rolunu oynamasında, sarsılmaz etibar və etimadı ifadə etməsindədir. Xalqın düşüncəsində qoşa addımlamaq vahid məqsəd naminə əqidə birliyi, dərin həmrəylik ifadəsi sayılır. Azərbaycan vətəndaşları Prezident İlham Əliyevin və Mehriban Əliyevanın qoşa addımlarını firavan gələcəyin, əmin-amanlığın və növbəti uğurların əlaməti olaraq yüksək qiymətləndirir.

Mehriban xanım Əliyevanın həyat amalı, tarixi missiyası Ulu Öndər Heydər Əliyevin qurduğu, Prezident İlham Əliyevin uğurla bugünkü yüksəkliklərə ucaltdığı Azərbaycanın xoşbəxt gələcəyi naminə təmənnasız xidmətlər göstərməkdən ibarətdir. Onun dövlətə və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə dərindən sədaqəti, humanizmi və insanpərvərliyi, ölkəmizin beynəlxalq təbliğatı sahəsində titanik fəaliyyəti Azərbaycanın uğur formulunun ayrılmaz hissəsidir. Xalqımız onun xidmətlərini minnətdarlıq hissi ilə dəyərləndirir, Azərbaycanın birinci xanımına və Birinci vitse-prezidentinə hörmət və ehtiramlarını ifadə edir.

Səhifə ➡ 2

# Azərbaycanı gələcəyə aparan qoşa addımlar



**Prezident İlham ƏLİYEV:**

**“Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır. Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Əminəm ki, o bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir.”**

*(əvvəli 1-ci səhifədə)*

Təvazökarlıq insanın ən ali mənəvi xarakterlərindəndir. *“Ailə mənim üçün düşünürəm ki, elə hər kəs üçün istənilən şəraitdə həyatın əsas mənası və stimulu, istinad nöqtəsi və güc mənbəyidir”*, – deyən Mehriban xanım Əliyeva olduqca təvazökar xanımdır. Müsahibələrinin birində birinci xanım deyib: *“...Həyatım elə gətirib ki, mən ictimai şəxsiyyətəm, lakin heç vaxt tanınmağa, məşhur olmağa can atmamışam. Əgər hansısa nəticələr əldə etməyə nail oluramsa, fəaliyyətim fayda gətirirsə, ölkəyə və insanlara xidmət edirəmsə, yardıma ehtiyacı olanlara kömək etməyi bacarıramsa – bu, mənim üçün ən yüksək mükafatdır...”* Bu kəlmələr Vətən üçün, dövlətçilik üçün yaşayan böyük ürəkli, praqmatik təfəkkürlü bir insanın həyat, ömür fəlsəfəsinin tərkib hissələrindəndir, onun yaşam manifestidir.

“Türkiye” qəzetinin jurnalisti Yücel Koç “Qardaş ölkədə nələr olur? Mehriban Əliyeva ilə Azərbaycanda dəyişiklik rüzgarı” məqaləsində yazır ki, Mehriban xanım *“...son dərəcə çətin yolda nədən güc alır? İlk növbədə, öz xalqının dəstəyindən, inamından və sevgisindən”*. Jurnalistin qənaəti isə gerçəkdir. Mehriban xanım xalqını sevir. Xalq Prezident cənab İlham Əliyevə inandığı kimi, Birinci vitse-prezidentə də inanır. Xalq dövlət başçısını, Birinci vitse-prezidenti dəstəkləyir. Türkiyəli jurnalist bu qənaətdə də haqlıdır: *“Mehriban xanımın başlıca missiyası hər zaman və hər yerdə Vətənimizin maraqlarını qorumaqdır”*.

Mehriban xanımın fəaliyyətində ölkə başçısı, cənab İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasəti nəticəsində, əldə edilən Böyük Zəfərin nəticələrinin möhkəmləndirilməsi, Qarabağda ədalətin bərpa olunması işini və bu siyasi xətti dəstəkləyən missiyası təşkil edir. O, xüsusilə işğaldan azad olunan ərazilərdə tarixi abidələrimizin, misilsiz memarlıq nümunələrimizin yenidənqurma və bərpası, şəhər və kəndlərimizin müasir simasının formalaşdırılması, infrastrukturun inkişafı üçün yorulmadan çalışır. Qarabağın incisi Şuşa şəhərində gedən abadlıq və quruculuq işlərində yaxından iştirak edir, bu müqəddəs məkanın dünyanın mədəniyyət paytaxtlarından biri kimi tanınması üçün əzmlə səy göstərir, mədəniyyət diplomatiyası vasitəsilə ölkənin xarici siyasətində əhəmiyyətli rola malik fəaliyyət sərgiləyir.

Təsadüfi deyildir ki, zəngin mənəvi keyfiyyətlərinə, insanpərvərlik, şəfqət və mərhəmət rəmzinə çevrilmiş fəaliyyətinə, yüksək ideallar naminə müxtəlif təbəqələrin nümayəndələrini səfərbər etmək bacarığına və yorulmaz əməyinə görə həm ölkəmizdə, həm də beynəlxalq aləmdə yüksək titullara və mükafatlara layiq görülməkdədir. Bütün bunlara rəğmən ən böyük mükafatı xalqının sevgisi, inamı və etimadı olan bir şəxsiyyət kimi Mehriban xanım bu gün hər zaman olduğundan daha çox bu etimadı doğrultmağa çalışır.

Mehriban xanım qalib ölkənin qalib sərkərdəsi, Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ömür-gün, həyat yoldaşı olmaqla bərabər, onun məslək, qayə yoldaşı, həyat yolunu birlikdə addımlayan sədaqətli silahdaşıdır. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın Zəfər müjdəsini ilk olaraq sosial şəbəkə hesablarında “Sizin Mehriban” imzası ilə paylaşması, Prezidentlə birlikdə hospitallarda müalicə olunan hərbçiləri ziyarət etməsi, şəhid analarının yanında olarkən göz yaşlarını  gizlətməyə çalışması, qələbədən sonra dəfələrlə işğaldan azad olunmuş rayonlara səfəri Mehriban Əliyevanın həm vətənpərvər, cəsarətli, güclü, eyni zamanda mərhəmətli və şəfqətli olmasını göstərir, həm də bu təyinatın çox doğru olduğunu sübut edir. Prezident İlham Əliyev birinci xanımın Birinci vitse-prezident kimi fəaliyyəti haqqında xarici jurnalistin verdiyi sualı belə cavablandırır: ***“Onun azərbaycanlılar arasında güclü dəstəyi var. Siz küçədə istənilən şəxsdən soruşa, vətəndaşların onu necə sevdiyini və dəstəklədiyini görə bilərsiniz. O, tamamilə sosial və humanitar məsələlərlə məşğuldur və on minlərlə insana yardım edir. Lakin o bunu hər hansı bir piarsız, reklamsız və elansız edir. Beləliklə, o, xalqımızın qürur duyduğu bir şəxsdir”.***

Dövlət başçısı cənab İlham Əliyevlə birgə Mehriban xanımın ölkənin inkişaf strategiyasının hazırlanmasında, həyata keçirilməsində, həmçinin sosial, humanitar və iqtisadi layihələrin gerçəkləşməsində böyük əməyi var. Onun siyasi fəaliyyətinin kökündə humanizm dayanır. Birinci vitse-prezident ölkənin sosial problemlərinin həllinə daha çox diqqət ayırır. O, hər zaman həssas əhali qruplarına qayğı ilə yanaşır, onların sosial ehtiyaclarının ödənilməsi üçün müxtəlif təşəbbüslər irəli sürür, bayramlarda, dövlətimiz üçün digər əlamətdar günlərdə onlara sovqatlar, hədiyyələr göndərir. Bundan başqa, şəhid ailələri və qazilər də Mehriban xanımın diqqətindən kənarda qalmır. Onların, demək olar ki, bütün problemlərinin həllinə şəxsən dəstək göstərir, evlə, avtomobillə təmin olunmasında yaxından iştirak edir. Həmçinin biz şahidi oluruq ki, Mehriban xanıma səhhəti, təhsili və digər sosial problemləri ilə yüzlərlə insan müraciət edir. Bütün bunlara dərhal reaksiya verilir, qarşılaşdıqları problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülür.

Xalq onu sevir və ona inanır. Ona görə ki, Mehriban Əliyevanın sayəsində cəmiyyətin sosial həyatında xeyriyyəçilik ənənələri canlanıb. Birinci vitse-prezident insanlara xeyirxahlığa meyil, başqasının dərdinə şərik olmaq, köməyə ehtiyacı olana yardım əlini uzatmaq kimi hiss və bacarıqları aşılayıb. Onun *“Xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq ənənələri davam etdirməyə çalışırıq”* sözləri xeyriyyəçiliyin həyatının kredosuna çevrildiyini bir daha təsdiqləyir.

Mehriban xanım Əliyevanın ötən illərdə göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir. Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir. Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatların, daxili və xarici siyasətin ən böyük dəstəkçisi və dövlət başçısının ən sadiq silahdaşıdır. Onun uğurlu, səmərəli və nümunəvi fəaliyyəti həm ölkəmizdə, həm də beynəlxalq müstəvidə olduqca yüksək qiymətləndirilir. Dünya miqyasında elm xadimləri, ziyalılar, ictimai-siyasi xadimlər, dövlət adamları Azərbaycanın birinci xanımının tarixi missiya yerinə yetirdiyini, bəşəriyyətin bugünkü inkişafına və gələcəyinə layiqli töhfə verdiyini ifadə edirlər.

Mehriban xanımın fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır və həmçinin ölkənin birinci xanımı fədakarlığı, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlılığı ilə ən böyük mükafat olan ümumxalq sevgisinə layiq olduğunu sübut edir. Mehriban xanım Əliyeva əzmkar və genişmiqyaslı fəaliyyəti ilə Heydər Əliyev ideyalarının gerçəkləşdirilməsində, Ulu Öndərin zəngin dövlətçilik irsinin yaşadılmasında əvəzsiz rol oynayır. Prezidentin müvafiq sərəncamları ilə Mehriban Əliyevanın ən yüksək dövlət təltifi olan “Heydər Əliyev” ordeninə layiq görülməsi onun Ulu Öndərin zəngin dövlətçilik irsinə əsaslanan çoxşaxəli fəaliyyətinin bariz nümunəsidir. Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin silahdaşı olaraq birgə dövlətin daha da yüksəlişi istiqamətində hələ çox işlər görəcəklər.

Bütün bunları ümumiləşdirsək görərik ki, Birinci vitse-prezidentin gördüyü işlər yalnız və yalnız xalqa xidmət missiyasından ibarətdir. Ən əsası isə odur ki, bu fəaliyyət Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla və layiqincə tamamlayır. Şübhə yoxdur ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev ideyaları əsasında görülən işlər bundan sonra da müstəqilliyimizin möhkəmləndirilməsinə, milli həmrəyliyin və tarixi Zəfərimizin əsaslarının gücləndirilməsinə və yeni mərhələdə ardıcıl uğurların, o cümlədən yeni qələbələrin qazanılmasına müstəsna töhfə olacaqdır. Mehriban xanım Əliyevanın dediyi kimi: *“Gərəkli və faydalı olmaq, insanların sənə inanması və səni dəstəkləməsi xoşbəxtlikdir. Xoşbəxtlik vicdan və niyyətin təmiz olması, sevgi və xeyirxahlığın həyatın əsas qayəsinə çevrilməsidir”*.

✍ **Məhəbbət MİRZƏYEVA**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Böyük Qayıdışın Kəlbəcər səhifəsi

## Kəlbəcər dünyanın ən gözəl, mənzərəli şəhərlərindən birinə çevrilir

***"Kəlbəcər şəhəri indi dünyanın ən gözəl mənzərəli şəhərlərindən birinə çevrilir. Siz artıq birinci yaşayış kompleksində evlərlə təmin olunursunuz, amma inşaat işləri bununla bitmir. Bu gün təməlini qoyduğum növbəti yaşayış komplekslərində yaxın gələcəkdə sizin qohumlarınız, dostlarınız gəlib yerləşəcək. Birinci mərhələdə Böyük Qayıdış proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq".***



### Müasir yol infrastrukturu, "yaşıl iqtisadiyyat"a keçid, təsərrüfatçılıq ənənələrinin bərpası

Azərbaycanın tarixi Zəfəri ilə yekunlaşan Vətən müharibəsindən sonra dövlətimizin qarşıya qoyduğu əsas hədəflərdən biri Qarabağın, Şərqi Zəngəzurun bərpası və bu bölgələrdə hərtərəfli iqtisadi, mədəni dirçəlişin təmin olunmasıdır. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" əsasında görülən tədbirlərdə, quruculuq, yenidənqurma işlərində, inteqrasiya, restavrasiya proseslərində effektivliyi, səmərəliliyi artıran əsas nüans kompleks yanaşmanın tətbiqidir. Yəni paralel şəkildə şəhər və kəndlərin yol infrastrukturu qurulur, fərdi evlər, yaşayış kompleksləri inşa olunur, "yaşıl texnologiya"lara əsaslanan müəssisələr yaradılır, yurd yerlərimizin əvvəlki şöhrəti, turizm cəlbediciliyi özünə qaytarılır. Prezidentin azad olunan torpaqlara hər gəlişi quruculuq və bərpaya dair yeni addımların atılması, dünyaya ünvanlanan, regionda baş verən ictimai-siyasi hadisələrə dair mühüm mesajlarla tarixə düşür. Ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın avqustun 21-də Kəlbəcər və Ağdərə rayonlarına növbəti səfərləri də bu baxımdan olduqca yaddaqalan oldu...

2020-ci ildə 44 günlük Vətən müharibəsində müzəffər Ordumuzun yaratdığı reallıq, məxsusən də Ali Baş Komandanın siyasi iradəsi, diplomatik məharəti sayəsində azadlığına qovuşan Kəlbəcər Qarabağın, sözün əsl mənasında, cənnət guşəsidir. Təsadüfi deyil ki, bu rayonumuzu Azərbaycanın "qərb qapısı" adlandırırlar. Kəlbəcərin gözəl təbiəti, zəngin mineral suları ölkəmizdə turizmin inkişafına təkan verməklə iqtisadiyyatın gücləndirilməsi üçün böyük əhəmiyyət daşıya bilər. Ümummilli Liderimiz Heydər Əliyev bu yurdumuzun füsunkarlığını ən gözəl, səmimi sözlərlə dilə gətirib: ***"...Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisusu. Biz onlarsız yaşaya bilmərik. Təsəvvür edə bilmərik"***. Bu gün dövlət başçısının rəhbərliyi, göstərişi, birbaşa diqqəti, nəzarəti ilə Ulu Öndərin arzuları reallaşıb, səfalı yurd yerimiz yenidən dirçəldilir, İstisuyun əvvəlki şöhrəti özünə qaytarılır. Qeyd etdiyimiz kimi, əldə olunan bütün nailiyyətlər Böyük Qayıdış proqramının düzgün və kompleks icrasının məntiqi nəticəsidir. Göstərilən diqqət və həssas yanaşma həm də onu deməyə əsas verir ki, qayıdış prosesi ölkəmizin sosial-iqtisadi inkişafında qazanılan nailiyyətlərin ayrılmaz tərkib hissəsinə çevrilib.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun istifadəyə verilməsi məskunlaşmanın sürətləndirilməsi, Kəlbəcər və ətraf ərazilərin iqtisadi potensialının gücləndirilməsinə yol açmaqla Böyük Qayıdış proqramının uğurlu nəticələr verməsinə səbəbiyyət yaradacaq. Kəlbəcər rayonunun Vəng kəndində "AzərEnerji" ASC-nin "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyaların qurulması isə Prezident İlham Əliyevin Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi ideyasının növbəti uğurudur. Qeyd etmək yerinə düşər ki, sözügedən stansiyaların istifadəyə verilməsi ilə bu cür stansiyaların sayı, ümumilikdə, 38-ə, ümumi gücü isə 307 MVt-a çatdırılıb. Sistemli şəkildə tikilib istismar olunan bu stansiyalar "yaşıl iqtisadiyyat"a keçidə, "yaşıl enerji"nin genişlənməsinə, ətraf mühitin qorunmasına öz töhfəsini verir. Rayonda yaşayış komplekslərinin inşası, "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın istifadəyə verilməsi isə sakinlərin həm firavan yaşayışı, həm də təsərrüfatçılıq ənənələrinin inkişafı baxımından olduqca mühüm addımdır. Avqustun 21-də Prezident İlham Əliyev Kəlbəcər şəhərində sakinlərlə görüşü zamanı Böyük Qayıdışa dair Dövlət Proqramının icra əhəmiyyətinə diqqəti çəkib, Kəlbəcər şəhərinin dünyanın ən gözəl, mənzərəli şəhərlərindən birinə çevrildiyini vurğulayıb: ***"Dövlət sizin üçün burada gözəl şərait yaradıb. Kəlbəcər şəhəri indi dünyanın ən gözəl mənzərəli şəhərlərindən birinə çevrilir. Siz artıq birinci yaşayış kompleksində evlərlə təmin olunursunuz, amma inşaat işləri bununla bitmir. Bu gün təməlini qoyduğum növbəti yaşayış komplekslərində yaxın gələcəkdə sizin qohumlarınız, dostlarınız gəlib yerləşəcək. Birinci mərhələdə Böyük Qayıdış proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq".***

### Naxçıvan Muxtar Respublikasında dəmir yolu tam müasirləşdiriləcək

Prezidentin azad olunan torpaqlara digər səfərləri kimi, Kəlbəcərə gedişi də təkcə Böyük Qayıdış proqramının icrasına aydınlıq gətirmədi, eyni zamanda regionda qarışıqlıq, hərc-mərclik, çaxnaşma yaratmağa çalışan siyasi qüvvələrə, dairələrə mühüm mesajların verilməsi ilə yadda qaldı. Ölkə başçısı Qarabağın otuzillik işğal dövrünün, 2020-ci ilin Vətən müharibəsi və sonrakı mərhələnin, antiterror əməliyyatlarının nəticələrini, sülh prosesini, bölgədə yaradılan yeni reallıqları şərh etdi, müharibənin də, sülhün də yeganə qalibinin məhz Azərbaycan olduğunu bir daha diqqətə çatdırdı.

Kəlbəcər səfərindən ünvanlanan vacib siyasi, iqtisadi mesajlardan biri isə son günlərdə əsas diqqət mərkəzində olan Zəngəzur dəhlizinin açılması, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısının təmin olunması məsələsidir. Bu xüsusda onu diqqətə çəkmək olar ki, avqustun 8-də Ağ evdə əldə olunan tarixi razılaşmalardan sonra artıq regionda yeni sülh, əməkdaşlıq mühiti formalaşmaqdadır. Məhz bu baxımdan Zəngəzur dəhlizinin mühüm hissəsi olan Kars-İğdır-Aralık-Dilucu (Qars-Naxçıvan) dəmir yolu xəttinin təməlinin qoyulması, tikinti işlərinə start verilməsi də bölgədəki geoiqtisadi canlanmanın əsas göstəricilərindəndir. Bu xətt qardaş Türkiyənin bölgələri ilə yanaşı, Naxçıvanın da nəqliyyat infrastrukturunun yenilənməsinə, iqtisadi, turizm potensialından səmərəli istifadəyə yol açacaq, ixrac-idxal əməliyyatları genişlənəcək. Zəngəzur dəhlizinin digər bir qolu isə Azərbaycanın iki hissəsini bir-biri ilə birləşdirməklə paralel, beynəlxalq nəqliyyat dəhlizi kimi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun, digər bir adla desək, Orta Dəhlizin yükaşırma qabiliyyətini və rentabelliyini artıracaq.

Prezident İlham Əliyev Kəlbəcər sakinləri ilə görüşündə Naxçıvanla Azərbaycanın digər ərazisinin nəqliyyat bağlantısını təmin edəcək marşrutun əhəmiyyətinə də toxundu, Vaşinqtonda əldə olunan razılaşmaları növbəti tarixi uğur kimi dəyərləndirdi. Sitat: ***"Artıq Ermənistan bu öhdəliyi də üzərinə götürmüşdür və ümid edirəm ki, yaxın bir neçə il ərzində biz qatarlarla və avtomobillərlə Azərbaycanın əsas hissəsindən Naxçıvana gedə biləcəyik. Eyni zamanda bu təkcə Azərbaycanın iki hissəsini bir-biri ilə birləşdirməyəcək. Bu, eyni zamanda beynəlxalq nəqliyyat dəhlizinə çevriləcək. İndi Azərbaycan ərazisindən bir neçə nəqliyyat dəhlizi keçir və bu, əlbəttə ki, ölkəmizin önəmini artırır. Bir dəhliz də məhz bu istiqamət üzrə gedəcək. Artıq Zəngilana qədər dəmir yolunun inşası uğurla davam edir, yəqin ki, gələn il başa çatacaq. Biz indi Naxçıvan Muxtar Respublikasında dəmir yolunu tam müasirləşdirəcəyik. Ermənistan ərazisində də dəmir yolunun tikintisi nəzərdə tutulur. Yəni Ermənistan bu öhdəliyi də üzərinə götürüb və bu bizim növbəti tarixi uğurumuzdur".***

Ümumilikdə, Kəlbəcər səfəri bir neçə vacib, əhəmiyyətli mesajı dünyanın diqqətinə çatdırdı: Azərbaycan azad olunan torpaqlara Böyük Qayıdış siyasətini uğurla reallaşdırır, regionda baş verən bütün ictimai-siyasi hadisələr nəzarətdədir, istənilən təxribata qarşı hazırlıqlıyıq, bu xüsusda hərbi gücün artırılması daim diqqətdə saxlanılır. Müharibəni qazanan ölkə kimi, sülh, əməkdaşlıq prosesi də respublikamızın təşəbbüsü və əsas tərəf kimi iştirakı, razılığı ilə həyata keçirilir. Regionda sabitlik, əmin-amanlıq dövlət siyasətimizin əsas prioritetlərindəndir, bu sabitliyi pozmağa çalışanlar layiqli cavablarını mütləq alacaqlar. Xalqımız, xüsusilə də gənc nəsil dövlətçilik, ərazi bütövlüyü və suverenliyimizin qorunmasına həssaslıqla yanaşmalıdır, sülhə rəğmən vaxtilə Qarabağda soydaşlarımıza qarşı törədilən bəşəri cinayətlər, o cümlədən də Xocalı, 20 Yanvar və digər soyqırımı, vandalizm aktları unudulmamalıdır. Və nəhayət, Azərbaycan dünyaya sübut etdi ki, onunla razılaşmaq vacibdir, hesablaşmayan mütləq peşman olacaqdır. ***"Dünya birliyi, beynəlxalq aləm bizim Qələbəmizi və yeni reallıqları tam qəbul etmişdir və bu da özlüyündə tarixi hadisədir. Çünki sirr deyil ki, həm işğal dövründə, həm də müharibə dövründə Ermənistanı dəstəkləyən böyük dövlətlər bizə hər zaman böyük problemlər yaradırdı və yarada bilərdi. Bizim gücümüz, xalqımızın iqtidarla bir yerdə olması, hərbi Zəfərimiz, cəmiyyətdəki ovqat, vətənpərvərlik ruhu – bütün bu amillər bütün dünyaya göstərdi ki, hər kəs bizimlə hesablaşmalıdır və bizimlə hesablaşmayan, nəticədə, peşman olur. Bunu Ermənistan-Azərbaycan müharibəsi, Vətən müharibəsi, müharibədən sonrakı dövr göstərmişdir və bunu bugünkü reallıqlar da göstərir"*** sitatın sonu!



**Nail ƏSGƏROV**

# Ədalətin və zəfərin təcəssümü Laçın Şəhəri Günü

***Bu mənəm, Qafqaz dağlarının Laçını. Torpağım qədimdir, lap qədim. Gözələm, dağların cənnətiyəm. Elə buna görə də başım çox bəlalar çəkib mənim. Çətin günlərim çox olub, amma igid oğullarım qoruyub məni hər zaman.***



1992-ci ilin çətin günləri idi. Yaxın qonşum cənnət Şuşa bir neçə gün idi ki, düşmənə peşkəş verilmişdi bacarıqsız hakimiyyətin əli ilə. Hələ Xocalı faciəsinin dərdinə, acısına ağlayan gözlərin yaşı qurumamış Şuşa dərdi düşmüşdü insanların ürəyinə. Mənim də canıma üşütmə düşmüşdü sanki. Səfalı meşələrimi, dağlarımın başını duman almışdı. İgid oğullarım can verdikdə bir qarış torpaq uğrunda, qanı hopduqca torpağıma harayım ərşə qalxırdı. Çünki yaxşı bilirdim ki, Şuşa əldən gedibsə, mənim də taleyim çətin olacaq. Elə düşündüyüm kimi də oldu. Bacarıqsız, xalqını yox, öz mənafeyini düşünən rəhbərlərin ucbatından mən də əsir oldum düşmənə. Uzaq düşdüm elimdən, obamdan, ayrıldım doğma anamdan, doğma insanlarımın isti nəfəsinə, hənirtisinə həsrət qaldım illərlə. Düşmən əsgəri gəzdikcə sinəm üstə ərşim dağlara yayıldı. Həkəri çayı lal axdı, xınalı qayalarımın xınası da soldu. Sarı Aşığın sazından qəm-qüssə sədaları gəldi. Ürəyi sazlı-sözlü laçınlılar dağlıq, meşəlik yerləri Laçına bənzətdi, ağı deyib ağladı. Amma heç bir dağ-dərə Laçının əvəzi ola bilmədi. Həsrətimin nəğməsinə çevrildi “Laçınım” mahnısı.

28 il kimsəsiz, əzizlərim olmadan yaşadım mən. Yana-yana, yanıqlı bayatılar deyə-deyə dünyadan köçdü neçə-neçə insan məni görmədən, havamı udmadan, torpağıma ayaq basmadan. Beləcə, ömür keçdikcə bu yurd həsrətinin yarası qabıq qoydu. Amma sağalmadı, yurd, torpaq həsrəti ilə o yaranın qabığı tez-tez soyuldu. Dağların qoynundakı yurdda, ocaqda tüstülənən odun sobasının üstündə dəmlənən yarmaaşında qaldı çoxlarının fikri, xəyalı. Elə mənim də fikrim, xəyalım öz doğmalarımın yanında idi. Nə qışım qış kimi gəlirdi, nə baharda üzüm gülürdü.

...Amma heç vaxt ümidimi itirmədim, elə hey gözlərim yol çəkirdi. Bilirdim ki, bu yollar bir gün məni də əzizlərimə qovuşduracaq. 28 qış gəldi, bahar ötdü, amma mənim baharım gəlmədi, ta ki həmin payıza kimi. Həmin payız ki o payızda yaz günəşi doğuldu Azərbaycanın səmasında. İsitdi qəlbimi, həsrətlə yanan ürəyimi. Elə ki sorağı gəldi Cəbrayılın, Qubadlının, Zəngilanın, Şuşanın azad olunduğunun, mən də əmin oldum ki, igid Azərbaycan əsgəri məni də azad edəcək. Düz 44 gün gözlərim yolda, qulağım səsdə qaldı yurdundan uzaq düşən laçın quşunun da, mənim də. Payızın sərin günlərindən birində soraq gəldi Şuşadan. O, azad olmuşdu. Dağlar haray gətirəndə mənə illərdir, yurdundan didərgin düşən laçın quşu da geri döndü. Soyuq bir qış günü tək güllə belə atılmadan azad edildim. Nəhayət, 2022-ci il avqustun 26-da həyatımın ən xoş xəbərlərindən birini aldım. Qalib Sərkərdəmin ***“Bu gün, avqustun 26-da biz – azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlılar və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm Yaşasın Laçın! Yaşasın Azərbaycan!”*** sözlərini eşitdim.

Bu gün mənim günümdür, Laçın Şəhəri Günü. Tariximin ən gözəl günü. Özümə, mənliyimə qayıdıb əzizlərimi qarşıladığım gün. Həkərinin nəğməsini doya-doya dinlədiyim gün.

Mən azadam, abadlaşmışam. Gül-çiçək açıb torpağım. Laçınlı olub Laçınsız doğulub böyüyən balalarım da öz evinə qayıdıb artıq. Laçın dərdi ilə qocalan, saçına dən düşən insanlarım da dönüb evinə-obasına. İllərlə sahibsiz qalan evlərdən indi doğmalarımın səsi gəlir. İllərlə gözü yolda qalan şəhid məzarları da qovuşub öz əzizlərinə. Onların da ruhu şaddır. Toy mağarı qurulur sinəm üstə, uşaqların gülüş səsi




qayıdıb hər bucağıma. Laçın quşu da qayıdıb pərvazlanır açıq səmamda. Başım üstə Zəfərin Sərkərdəsinin əllərində göylərə ucalan, şəhidlərin nəfəsi ilə dalğalanan Azərbaycan Bayrağı qürur verir mənə. Qürurluyam, çünki türk yurduyam. Çünki mən Azərbaycanın bir parçasıyam.Vətənimin əziz yurdu, Laçınıyam. Azad Laçını, abad, gözəl Laçını.

**“Şərq qapısı”**






# Azərbaycanın tarixi-mədəni irsini yaşadan böyük təsisat

# Heydər Əliyev Fondu

Heydər Əliyev Fondunun təsis olunduğu ilk gündən əsas amalı Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın tarixi, mədəni sərvətlərinin yaşadılması istiqamətindəki zəngin irsini təbliğ etmək, miras qoyduğu ənənələri, Azərbaycançılıq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaqdır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ötən 21 ildə fond xalqımıza məxsus mədəni irsin qorunması və dünya ictimaiyyətinin diqqətinə təqdim olunması sahəsində həyata keçirdiyi irimiqyaslı layihələrlə, misilsiz işlərlə dahi şəxsiyyətin adını layiqincə daşıdığını qəti şəkildə sübuta yetirib. Təsadüfi deyildir ki, Heydər Əliyev Fondu və onun prezidenti bu gün Azərbaycanla yanaşı, ölkə hüdudlarından uzaqlarda da hər kəsin böyük hörmət və sevgisini qazanıb, ən ali mükafatlar əldə edib. Cari ilin əvvəlində fondun İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) və Həmdan bin Rəşid Al Məktum Fondunun 4-cü birgə "Həmdan-ICESCO" mükafatının qalibləri sırasında yer alması da onun beynəlxalq nüfuzundan xəbər verir. Prezident İlham Əliyev də çıxışlarında dəfələrlə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirib, onu Cənubi Qafqazın xeyriyyəçilik sahəsində ən böyük təsisatı adlandırıb: ***"Xeyriyyəçilik sahəsində Cənubi Qafqazda ən böyük təsisat Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir".***

Heydər Əliyev Fondunu digər ictimai qrumlardan fərqləndirən əsas üstün cəhəti onun təkcə bir istiqamətdə deyil, çoxşaxəli fəaliyyətə malik olması, ən vacibi isə gördüyü bütün işlərdə xeyirxah və humanist insani dəyərləri başlıca prinsip hesab etməsidir. Təsisat öz işində elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya sahələrinə aid proqram və layihələrin hazırlanaraq həyata keçirilməsini və nəticəyönümlü hədəflərə çatmağı qarşıya qoyub. Ümummilli Liderimizin ***"Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur"*** ideyası fondun iş prinsipində əsas preambulalardan biridir desək, yanlış olmaz. Məlum olduğu üzrə, bir xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq həmin xalqın ziyalılarının, elm və təhsil ictimaiyyətinin fəaliyyəti nəticəsində mümkün olur. Bu mənada, Heydər Əliyev Fondunun Azərbaycan dilinin 50 dünya dili arasında tanınmış institutlarda tədris olunmasının dəstəkçisi olması böyük tarixi missiyadır.

Ötən illər ərzində fondun dəstəyi ilə dünya səviyyəli tarixi-mədəni abidələrimiz, adət-ənənələrimiz, milli dəyərlərimiz olmaqla, ümumilikdə, 20-dən çox nümunə UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib. 2008-ci ildə bu siyahıya Azərbaycan muğamının salınması isə xalqımızın mənəvi kimliyinin daşıyıcısı sayılan bu möhtəşəm sənətə göz dikən, onu mənimsəyə, oğurlamağa çalışan fitnəkarlara ən tutarlı cavabdır. Beynəlxalq səviyyədə qazanılan bu nailliyyəti şərtləndirən nüans təkcə təşəbbüsün irəli sürülməsi deyil, həm də bu təşəbbüsü gerçəyə çevirmək üçün güclü təşkilatçılıq və məsələlərə şəxsi diqqətdir, qayğıdır.

Heydər Əliyev Fondu bu gün ölkəmizdə böyükdən-kiçiyə hər kəsin, o cümlədən də ahılların, uşaqların üzündə təbəssüm yaradan, onlara sevinc bəxş edən "xeyirxahlıq mücəssəməsi" adlı ictimai model formalaşdırıb. Fondun Prezidenti Mehriban Əliyeva, vitse-prezidenti Leyla Əliyevanın valideyn himayəsindən məhrum, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla mütəmadi şəkildə görüşməsi, onların təlim-tərbiyəsi ilə maraqlanması, müxtəlif xəstəliklərdən əziyyət çəkən balacaların müalicələrinin nəzarətə götürülməsi, uşaq və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili üçün reallaşdırılan müxtəlif tədbirlər və proqramlar təkcə təşkilati missiya deyil, həm də nəcib duyğuların, ən ali insani keyfiyyətlərin təntənəsidir. Ölkəmizin ərazi bütövlüyü uğrunda canını qurban verən şəhidlərin ailə üzvlərinin hərtərəfli təminatı, döyüşlərdə yaralanmış hərbçilərimizin reabilitasiyası, onların xarici ölkələrin tanınmış xəstəxanalarında müalicəsi, yüksək texnologiyalı protezlərlə təmin edilməsi, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, aztəminatlı ailələr üçün nəzərdə tutulan özünüməşğulluq proqramının genişləndirilməsinə fondun dəstəyi ictimaiyyət nümayəndələri, cəmiyyət üzvləri arasında təsisatın nüfuzunun güclənməsinə təsir göstərən əsas amillərdir.

Heydər Əliyev Fondu milli irsimizin yaşadılması, mədəni dəyərlərimizin qorunması, dünyada düzgün təbliğatı prosesində olduğu kimi, tariximizin saxtalaşdırılması, xüsusilə də işğal dövründə Qarabağda mənəvi sərvətlərimizin talan edilməsi, viran qoyulmasına qarşı mübarizədə də ön cəbhədə yer alıb. Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən məqsədyönlü siyasətin tərkib hissəsi kimi fond bir sıra beynəlxalq təşkilatların Ermənistanı işğalçı dövlət kimi tanımasında müstəsna xidmətlər göstərib.

Otuz il ərzində ermənilərin xalqımıza qarşı törətdikləri vandalizmə dair həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, soyqırımına obyektiv qiymət verilməsi istiqamətində ardıcıl addımlar atılıb. Bu baxımdan 2008-ci il mayın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təsis edilən "Xocalıya ədalət!" kampaniyasının fəaliyyəti təqdirəlayiqdir. Kampaniya çərçivəsində aparılan güclü beynəlxalq ideoloji təbliğatın, təşviqatın nəticəsidir ki, irəli sürülən təşəbbüs bir sıra ölkələrdə dövlət səviyyəsində dəstəklənib. Ümumilikdə, ədalətin bərpası istiqamətində aparılan diplomatik səylər nəticəsində 18 ölkənin qanunverici orqanı, ABŞ-nin 24 ştatı, həmçinin İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı Xocalıda baş vermiş faciəni soyqırımı kimi tanıyıb. Xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə 10 abidə ucaldılıb.

Bütün dünyaya bəlli olduğu kimi, ermənilərin 30 ilə yaxın müddətdə Qarabağda törətdikləri vəhşilik ən çox tarixi irsimizin məhvinə yönəlib, yüzlərlə qədim abidələrimiz, dini ziyarətgahlarımız, məscidlərimiz vandallığa məruz qalıb. Azərbaycanın 2020-ci ildəki tarixi Zəfəri ermənilərin əzəli torpaqlarımızla bağlı cəfəng ideyalarının üstündən birdəfəlik xətt çəkib. Bu baxımdan Heydər Əliyev Fondunun təşkilatçılığı əsasında Böyük Qayıdış proqramı çərçivəsində müasir infrastrukturun qurulması ilə yanaşı, tariximizin, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin bərpası da prioritet məqsədlərdən hesab edilir.

Ötən dövrdə tarixi abidələrin inventarlaşdırılması həyata keçirilib və bərpasına başlanılıb. Heydər Əliyev Fondu dini və tarixi abidələrin restavrasiyasında, təmir-tikinti işlərində xüsusi rol oynayır, fondun təşkilatçılığı ilə bir sıra abidələr, o cümlədən Üzeyir bəy Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin büstü və məqbərəsi, Bülbülün ev-muzeyi, Saatlı məscidi, Şuşada Aşağı və Yuxarı Gövhər ağa, Ağdam Cümə məscidləri bərpa olunub. Görülən mədəni-kütləvi tədbirlər çərçivəsində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günlərinin təşkili milli-mənəvi dəyərlərimizin bərpasına xidmət baxımından məxsusi əhəmiyyət daşıyır. Bu əlamətdar tədbirlər bölgəyə xas milli dəyərlərin yaşadılmasına geniş imkanlar açmaqla dünyaya "Bizik bu torpaqların əsl sahibi" mesajını çox aydın və dolğun şəkildə ötürür. Fondun təşəbbüskarlığının, tarixi-mədəni irsimizə göstərilən böyük diqqətin nəticəsidir ki, zəfər rəmzimiz sayılan Şuşa 2023-cü ildə Türk dünyasının, ötən il isə İslam dünyasının mədəniyyət paytaxtı kimi mühüm missiyasını uğurla yerinə yetirdi.

Böyük Qayıdış proqramının icra prosesi göstərir ki, qarşıya qoyulan bütün hədəflər kimi Heydər Əliyev Fondunun dəstəyi əsasında Qarabağa milli irsimizin qaytarılması, dəyərlərimizin yenidən dirçəldilməsi də uğurla həyata keçirilir. 2025-ci ildə də bu istiqamətdə işlərin icrası davam etdirilir. Ağdam Muğam Mərkəzinin yenidənqurma və bərpadan sonra istifadəyə verilməsi ilin birinci yarısında ən çox diqqətçəkən mədəniyyət hadisələrindəndir. Bəli, muğam Azərbaycan üçün təkcə musiqi janrı deyil, həm də tarixi miras, mədəni irs, milli kimlikdir. Bu mənada, qədim Ağdam torpağında ucalan səda yalnız muğam sədası deyil, köklü sivilizasiyaya, mədəni dəyərlərə qayıdış sədasıdır. Ağdam Muğam Mərkəzinin öz tarixi məkanında fəaliyyətə başlaması həm də vaxtilə böyük təşəbbüslə bu mərkəzi yaradan Heydər Əliyev Fondunun Ulu Öndərin dərin irsinə, ideyalarına sədaqətinin növbəti göstəricisidir. Ağdam Muğam Mərkəzinin açılışının mayın 10-da, milli musiqimizin yaşadılması yolunda əvəzolunmaz tarixi xidmətlər göstərən Ümummilli Lider Heydər Əliyevin anadan olduğu gündə keçirilməsi də bu baxımdan heç də təsadüfi deyildir. Açılış mərasimində Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bu gözəl tədbirin mayın 10-da keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır. Ulu Öndərin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan onun əsəridir".***

Bəli, bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi daxili, xarici siyasətin tərkib hissəsi kimi, milli-mənəvi dəyərlərimizin qorunması, tariximizin, mədəniyyətimizin yaşadılması kimi missiyanı uğurla yerinə yetirən Heydər Əliyev Fondunun fəaliyyəti daim təqdirəlayiq şəkildə özünü göstərir. Fond humanist prinsipləri əldə rəhbər tutaraq nəinki yerli, beynəlxalq ictimaiyyət tərəfindən alqışlanan, rəğbət qazanan əhəmiyyətli, nüfuzlu təsisat, böyük xeyriyyəçi məqamına malik olub. Təşkilat Ümummilli Liderimiz Heydər Əliyevin ***"Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"*** ideyasının yaşadılması yolunda tarixi xidmətlərini hər ötən gün daha şövqlə, daha əzmlə, daha inamla reallaşdırmaqdadır.

**"Şərq qapısı"**



# Vətənə təmənnasız xidmət

**O, sadəcə, dövlət başçısının xanımı deyil. O, qazilərin bacısı, şəhid oğulların anası, Vətəninə yorulmadan xidmət edən bir xanım, ürəyi vətən sevdalı bir azərbaycanlıdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva xeyriyyəçilikdən tutmuş, ölkənin səhiyyə və təhsil sistemlərinin, mədəniyyət və incəsənətinin inkişafı, Azərbaycanın beynəlxalq imicinin formalaşmasına qədər müxtəlif sahələrdə fəallıq göstərir.**









### *Vətən sevgisi, humanizm, Azərbaycançılıq*

Tarixə nəzər salanda görürük ki, qədim dünyanın müəyyən dövrlərində şöhrəti elləri aşan türk hökmdarları ilə yanaşı, onların xanımları da ölkənin idarə edilməsində iştirak ediblər. Hətta öz ərləri ilə bir olub zireh geyinib, döyüşlərə də gediblər. Fateh dövlət başçıları ömürlərinin çoxunu xarici səfərlərdə, ağır hərbi yürüşlərdə keçirəndə vətəni, dövləti qorumaq kişi qeyrətli qadınlara tapşırılıb. Atların yəhərdən çıxarıldığı, qılıncların qınına salındığı sülh dövründə də hökmdarların xanımları öz vəzifələrini davam etdiriblər. Onlar xalqın dərdinə yanıb, xeyirxahlıq əlini hər zaman xalqa uzadıblar. Bu gün xeyriyyəçilik və humanitar fəaliyyət yeni qiyafədə davam etdirilir. Bu xalq tarixin bütün dövrlərində mərd oğulların anaları, həyat yoldaşları ilə daim qürur duyub. O da həmin mərd, mətanətli xanımlardandır. Böyüdüyü və gəlini olduğu ailələrin gözəl xüsusiyyətlərini öz əməllərində birləşdirən Mehriban xanım.

"Bizim Mehriban", – deyir Azərbaycan xalqı bu gözəl xanıma. Xalqı ilə bir gülüb, bir ağlayan, hər kəsin qeydinə qalan qızıl insana. Onu Ali Baş Komandan ilə birlikdə sərhəd bölgəsində görənlər bu mərd xanımı daha da yaxından tanımağa başladılar. Döyüş bölgəsinə gəlməklə xalqın sevgisini qazandı. Qolunu itirmiş qazinin əli, gözünün nurunu Vətənə qurban verən zabitin gözünə nur oldu Mehriban Əliyevanın qayğısı. Gözüyaşlı şəhid anasının yanında dayanıb onun göz yaşını silib, şəhid balasını qucaqlayıb bağrına basdı. Düşmən gülləsinə tuş gəlib, yarı canını Vətənə qurban edən oğulları xəstə yatağında ziyarət edib, onlara güc verdi. Bacı oldu, ana oldu sağlamlığını Vətənə fəda edənlərə. Şəhidlərin ailələrini ziyarət edib onlara güc verdi. Onun qayğıkeş əlini həmişə çiynində də hiss etdi şəhid balası.

Ali Baş Komandanla bərabər yuxusuz gecələr keçirib ona dayaq oldu. Qələbəyə sevinib torpaq üçün canından keçən oğullara qürur göz yaşı tökdü. İşğaldan azad edilmiş ərazilərə hərbi formada qədəm qoyub şəhid oğulların ruhunu şad etdi. Ordumuzun qəhrəman oğullarına dəstək olub onları qələbəyə ruhlandırdı. Azərbaycan qadınının əsalətini, dönməzliyini, qəhrəmanlığını sübut etdi.

### *Qayğıkeş əllər qəlblərdə işıqlı sabaha inam yaradıb*

Dövlətimiz hər zaman şəhid ailələrini qayğı ilə əhatə edib. Bu diqqət və qayğının bariz nümunəsini Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva göstərir. Onun xidmətlərinin sevinci yüzlərlə şəhid ailəsinin ömür səhifəsinə yazılıb, neçə-neçə ailəyə səadət bəxş edib, onlara həyat eşqi verib, qəlblərdə işıqlı sabaha inam yaradıb.

İnsanlara təmənnasız yaxşılığı, qayğısı, mərhəməti, ehtiyacı olanlara əl tutması, xeyriyyəçiliyi onun siyasətinin prioritetidir. Mehriban xanım Əliyeva hər zaman Vətən uğrunda canından keçən igidlərin ailələrinə, doğma torpaqlarından məcburi köçkün düşmüş vətəndaşlarımıza qayğı ilə yanaşmasını, onların sosial problemlərinin həllinə diqqət göstərməsini və ümumiyyətlə, cəmiyyətin nəzərini bu məsələyə cəlb etməsini özünün vətəndaşlıq borcu hesab edib.

Əlbəttə ki, hər bir şəhid ailəsi qəhrəmanlarımızın bizlərə əmanətidir. Hər kəs bu əmanətə hörmət etməyə, qayğı göstərməyə çalışmalıdır. Bizlərə ən mükəmməl örnək Mehriban xanımdır. Birinci vitse-prezidentin uğurla reallaşdırdığı möhtəşəm xeyriyyəçilik missiyası onu milyonların sevimlisinə çevirib və bu əməllər Azərbaycan qadınının humanizm, mərhəmət kimi dəyərlərə malik olduğunu növbəti dəfə nümayiş etdirir.

### *Şəhid yadigarlarının ən böyük himayədarı olan xanım*

Vətənimiz 44 günlük müharibədə igid oğulların qəhrəmanlığına şahid oldu. Onlar üzünü görmədiyi balalarını Vətənə əmanət edib, Azərbaycan xalqının gələcəyi olan uşaqlara bütöv bir Vətən yadigar qoydular. Kimi qundaqda balasını, kimi dünyaya hələ gəlməyən, kimisi isə məktəbə, universitetə qədəm atması arzusu ilə yaşadığı övladını əmanət etdi bu Vətənə. İlk sözü ata olan körpələr ata əvəzinə soyuq məzar daşı qucaqlayanda Azərbaycan xalqı minnət duydu həmin körpələrə. Onların ən böyük himayədarı isə gözəl ana, qayğıkeş nənə Mehriban xanım oldu. Heydər Əliyev Fondunun dəstəyi ilə şəhid övladları qayğı ilə əhatə edildi. Onlar üçün müxtəlif layihələr əsasında tədbirlər təşkil edildi. Sağlamlıqları diqqətdə saxlanıldı. Qarşılaşdıqları bütün çətinliklər həll edildi. Təkcə "Mənim atam qəhrəmandır" layihəsindən Azərbaycanın müxtəlif bölgələrindən olan onlarla şəhid övladı yararlanır.



### *"Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var"*

Mehriban xanım Əliyevanın bu kateqoriyadan olan insanlara göstərdiyi qayğı genişmiqyaslıdır. Erməni işğalçıları ilə döyüşdə sağlamlığını itirmiş şəxslərə maddi-mənəvi dəstək, onların sağlamlığının bərpasına lazımi diqqət də Mehriban xanım Əliyevanın humanizm fəaliyyətinin əsasını təşkil edir. Müharibə qazilərinin əksəriyyəti Birinci vitse-prezidentin köməyi ilə dünyanın nüfuzlu xəstəxanalarında müalicə alır.

Heydər Əliyev Fondu "Döyüşlərdə yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini də həyata keçirir. Ötən müddət ərzində yüzlərlə zabit və əsgər yüksək texnologiyalı protezlərlə təmin olunub.

Birinci vitse-prezident protezlərlə təmin olunan hərbçilərlə görüş zamanı vurğulamışdır ki, dövlət onların fəaliyyətini yüksək qiymətləndirir, belə mərd və cəsarətli oğulların olması ilə fəxr edir. Hərbçilərimizin apardığı mübarizə haqq mübarizəsidir. Onların vətənpərvərliyini, qəhrəmanlığını, şücaətini yüksək dəyərləndirən Heydər Əliyev Fondunun prezidenti hər vaxt bu insanlara dəstək olacağını söyləmişdi: *"Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var"*.

O, sadəcə, dövlət başçısının xanımı deyil. O, qazilərin bacısı, şəhid oğulların anası, Vətəninə yorulmadan xidmət edən bir xanım, ürəyi vətən sevdalı bir azərbaycanlıdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva xeyriyyəçilikdən tutmuş, ölkənin səhiyyə və təhsil sistemlərinin, mədəniyyət və incəsənətinin inkişafı, Azərbaycanın beynəlxalq imicinin formalaşmasına qədər müxtəlif sahələrdə fəallıq göstərir. Onun bu çətin və uğurlu yolu davam etdirəcəyinə şübhə yoxdur. Bu fəaliyyətləri ilə o, insanlara kömək etməklə yanaşı, həm də yaxşı və nəcib nümunə göstərir.

Mehriban xanım Əliyevanın tükənməz enerjisinin haradan gəldiyinə cavab isə çox sadədir: Vətən sevgisi, humanizm, Azərbaycançılıq. Həyat yoldaşına sədaqət və dəstək.

**Ramiyə ƏKBƏROVA**

# İradə və zərifliyin vəhdəti – bədii gimnastika





Ölkəmizdə bir çox sahələrdə olduğu kimi, idman infrastrukturu da günün tələbləri səviyyəsində qurularaq sürətlə yenilənir və müasirləşir. Bu istiqamətdə atılan addımlar yalnız fiziki quruculuqla məhdudlaşmır, eyni zamanda cəmiyyətin sağlam həyat tərzinə təşviqi və gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Müasir tələblərə cavab verən idman obyektləri, regionlarda yaradılan komplekslər və idman məktəbləri bu sahədə aparılan məqsədyönlü siyasətin bariz nümunəsidir. Müstəqillik qazandıqdan sonra isə Azərbaycan idmanı özünün yeni inkişaf dövrünə qədəm qoyub. Gənc idmançılarımız beynəlxalq arenalarda qazandıqları uğurlarla yalnız şəxsi nailiyyətlərinə imza atmır, eyni zamanda ölkəmizin adını ucaldır, bayrağımızı zirvələrə qaldırırlar. Bu da, öz növbəsində, idmana göstərilən yüksək diqqət və qayğının təzahürüdür.

Azərbaycan Milli Olimpiya Komitəsinin əməli fəaliyyəti nəticəsində Azərbaycan bu gün dünya idman ailəsində özünəməxsus yerini tutaraq nüfuzlu idman mərkəzlərindən birinə çevrilib. Bu, təbii ki, ölkəmizdə idmanın bütün sahələrinin inkişafına təkan vermiş, müxtəlif idman növlərinə marağı daha da artırmışdır. Bu mənada, gimnastika da diqqətdən kənarda qalmamış, ölkəmizdə sürətlə inkişaf edən idman növlərindən birinə çevrilmişdir. Azərbaycan Gimnastika Federasiyasının fəaliyyəti bu baxımdan xüsusi qeyd olunmalıdır. Bu qurumun təşəbbüsləri və beynəlxalq arenada qazandığı uğurlar bir daha sübut edir ki, ölkəmiz idman sahəsində təkcə regionda deyil, dünya miqyasında da söz sahibi olmağa qadirdir. Qazanılan bu uğurlar və yeniliklər nəticəsində Azərbaycan artıq beynəlxalq aləmdə idman dövləti kimi tanınır. Bu isə gələcəkdə daha böyük hədəflərə doğru inamla irəliləməyimiz üçün möhkəm zəmin yaradır. Xüsusilə qeyd etməliyik ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsi bu sahədə əsl dönüş nöqtəsi olmuşdur.









Onun rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və ardıcıl fəaliyyət nəticəsində gimnastika ölkəmizdə tamamilə yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Federasiyanın təşəbbüsü ilə gimnastikanın bütün növləri üzrə mütəmadi olaraq yerli yarışlar təşkil edilir, eyni zamanda ölkəmizdə də beynəlxalq miqyaslı mötəbər yarışlar keçirilir. Belə ki, 2003 və 2005-ci illərdə Bakıda bədii gimnastika üzrə Dünya Kuboku keçirilmiş, 2007, 2009 və 2014-cü illərdə isə Azərbaycan Avropa çempionatına uğurla ev sahibliyi etmişdir. 2014-cü il isə həm Azərbaycan idman tarixinə, həm də gimnastika ictimaiyyətinin yaddaşına xüsusi bir hadisə ilə yazıldı. Həmin il Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Bakıda möhtəşəm Milli Gimnastika Arenasının (MGA) açılışı baş tutdu. Bu arena yalnız Azərbaycanın deyil, regionun ən müasir idman qurğularından biri olmaqla, gimnastların peşəkar şəkildə inkişafı üçün geniş imkanlar yaratdı. Qeyd olunmalıdır ki, bu gün Azərbaycan Gimnastika Federasiyası, sadəcə, idman yarışlarının təşkili ilə kifayətlənmir, əhalinin sağlam həyat tərzinə cəlb olunması, milli idman kadrlarının yetişdirilməsi, yığma komandaların formalaşdırılması və onların beynəlxalq yarışlarda iştirakının təmin edilməsi istiqamətində də mühüm işlər görür. Federasiya, həmçinin beynəlxalq idman təşkilatları və xarici ölkələrin idman qurumları ilə sıx əməkdaşlıq edir, Azərbaycanın bu sahədəki nüfuzunun daha da möhkəmlənməsinə çalışır.

Paytaxtımız beynəlxalq səviyyəli yarışlara ev sahibliyi etməklə yanaşı, bir sıra yeniliklərə də imza atmışdır. Bakının "Batut gimnastikası və tamblinq üzrə Dünya kuboku"na ev sahibliyi etməsi bunun bariz ifadəsidir. Gimnastlarımızın Lüksemburqda keçirilən akrobatika gimnastikası üzrə Avropa çempionatında 8 medal qazanması da xüsusi vurğulanmalıdır. Qeyd edək ki, akrobatika gimnastikası üzrə tarixdə ilk dəfə qadın və kişi qrupu Avropa çempionatında medal qazanmışdır. Bundan başqa, ölkəmiz bədii gimnastika üzrə Avropa kubokuna ev sahibliyi etmişdir. İlk dəfə olaraq bu Avropa kubokunda qrup hərəkətləri komandalarının çarpaz qarşılaşmaları baş tutmuşdur. Bolqarıstanın Burqas şəhərində keçirilən bədii gimnastika üzrə Avropa kubokunda iştirak edən böyüklərdən ibarət qrup hərəkətləri komandası medallar qazanmışdır. Adıçəkilən federasiya akrobatika gimnastikası üzrə Dünya kuboku, AGF Trophy yarışına ev sahibliyi etmişdir. Onu da vurğulayaq ki, "Gimnastika hamı üçün" 3-cü Bakı Beynəlxalq "Challenge" uğurla başa çatdırılıb. Bütün bu nailiyyətlər ölkəmizdə gimnastikanın sürətlə inkişaf etdiyini və beynəlxalq aləmdə nüfuzunun artdığını bir daha sübut edir.

Azərbaycanda gimnastika sahəsinə göstərilən diqqət və yaradılan yüksək şərait nəticəsində həm yerli idmançılarımızın uğurları artır, həm də ölkəmiz dünya gimnastika ailəsində mühüm tərəfdaşlardan birinə çevrilir. Bu uğurların davamlı olması üçün atılan addımlar gələcək nəsil gimnastların formalaşmasına möhkəm zəmin yaradır. Qeyd etmək yerinə düşər ki, bütün bu uğurların qazanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının Prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır.

Onun gimnastika idman növünün inkişafına göstərdiyi diqqət və qayğı, yaradılan yüksək təşkilati şərait və beynəlxalq əməkdaşlıqların genişləndirilməsi sahəsində atdığı addımlar ölkəmizin bu sahədəki nailiyyətlərini şərtləndirən əsas amillərdəndir. İdman və olimpiya hərəkatının inkişafını daim diqqətdə saxlayan Mehriban xanım Əliyeva gənc nəslin idmana cəlb edilməsinin vacibliyini dəfələrlə vurğulayıb: *"Biz əminik ki, Azərbaycan gimnastikasının qarşıda bir çox qələbələri və nailiyyətləri olacaq. Gimnastika bu sahədə böyük potensiala malikdir və onun inkişafı üçün Azərbaycanda hər cür şərait yaradılıb. Ən başlıcası isə Azərbaycan gimnastika məktəbinin sizin kimi gimnastika həvəskarları var. Mən inanıram ki, qazanılan uğurlar davamlı olacaq".* Bu fikirlər bir daha göstərir ki, ölkəmizdə idmanın bütün sahələrinin, o cümlədən gimnastikanın inkişafı da dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Muxtar respublikamızda da idman siyasətinin müasir dövrün tələblərinə uyğun şəkildə həyata keçirilməsi bir çox idman növü kimi, bədii gimnastikanın da inkişafına şərait yaradır. Bunun ifadəsidir ki, son illərdə gənclərin bu sahəyə marağı əhəmiyyətli dərəcədə artmış, peşəkar idmançılarımız isə beynəlxalq arenada ölkəmizi layiqincə təmsil etmiş və etməkdədirlər. Bu gün gənc nəsil yaxşı anlayır ki, bədii gimnastika yalnız fiziki hazırlıq deyil, eyni zamanda mənəvi tərbiyə baxımından da əhəmiyyətlidir. Ona görə də məşhur idmançıların tez-tez vurğuladığı "İdmana gimnastika ilə başlanılır" fikri bu sahənin təməl rolunu bir daha ortaya qoyur.

Qeyd edək ki, qədim diyarımızda əldə edilən ilkin uğurlar və keçirilən beynəlxalq yarışlar da göstərir ki, muxtar respublikada idmanın inkişafı məqsədyönlü şəkildə həyata keçirilir. Onu da vurğulayaq ki, muxtar respublikada bədii gimnastikanın təşəkkülü və inkişafı, əsasən, 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyətə başlayan bölmə və onun əsasında yaradılmış "Xatun" Bədii Gimnastika İdman Klubu ilə bağlıdır. İlk dövrlərdə azyaşlı gimnastlar Humay Qafarovanın rəhbərliyi ilə bu sahədə məşğul olmağa başlayıblar. Bu sahənin inkişafı üçün məqsədyönlü tədbirlər həyata keçirilib, texniki təchizat yaxşılaşdırılıb və məşqlər üçün ayrıca zal ayrılıb.

Ötən günlərdə Humay Qafarova Portuqaliyanın paytaxtı Lissabon şəhərində "5th World Gym for Life Challenge" beynəlxalq yarışmasında da ölkəmizi layiqincə təmsil edib. Əlavə olaraq onu da qeyd edək ki, Bakıda "Gimnastika hamı üçün" növü üzrə üçüncü beynəlxalq "Challenge" adlı tədbirdə də uğur qazanıb. Hazırda isə beynəlxalq yarışlara ciddi hazırlıqlar gedir və şübhəsiz ki, yaxın aylarda Naxçıvan bu mötəbər tədbirdə layiqincə təmsil olunacaq.

Muxtar respublikamızda gimnastikanın gələcək inkişafı üçün bir sıra layihələrin planlaşdırılması xüsusilə qeyd edilməlidir. Çünki bu gün qədim diyarımızda gimnastika yalnız bir idman növü deyil, eyni zamanda sağlam həyat tərzinin, estetik zövqün və mənəvi zənginliyin təcəssümüdür. Balaca gimnastların əzmkarlığı, məşqçilərin fədakarlığı və valideynlərin dəstəyi ilə bu sahədə atılan hər bir addım gələcəyə doğru inamlı yolun göstəricisidir.

Ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda insan sağlamlığında mühüm vasitə olan idman və onun müxtəlif sahələrinin inkişafı prioritet vəzifəyə çevrilib, bu istiqamətdə xeyli uğurlar qazanılıb. Əldə edilən nailiyyətlər isə daha da artır. Sözsüz ki, bu uğurlarda Azərbaycan Gimnastika Federasiyanın və onun prezidenti Mehriban xanım Əliyevanın böyük əməyi var.

**Bülbül RÖVŞƏNQIZI**





# Naxçıvan Ədəbiyyat Muzeyi 60 yaşında

Azərbaycan ədəbiyyatını daim yüksək qiymətləndirən Ulu Öndər demişdir: ***"Ədəbiyyatımızı bilmək lazımdır. Ədəbiyyatını bilməyən adam dilini yaxşı bilməyəcəkdir. Ədəbiyyatı bilməyən adam yüksək mədəni səviyyəyə çata bilməyəcəkdir".***

Ölkəmizin bir çox böyük şəhərlərində ədəbiyyat muzeyləri fəaliyyət göstərir. Digər belə mədəniyyət müəssisələri sırasında bu muzeylərin öz yeri var. Tarixi bilinməyən ədəbi nümunələrimizin saxlanc yeri, təbliğat yeri olan ədəbiyyat muzeyləri həm də buraya gələnlərdə ədəbiyyata maraq oyadan məkanlardır. Onlardan biri də Naxçıvan şəhərində fəaliyyət göstərir. 60 yaşlı muzeyin keçdiyi yol barədə mədəniyyət müəssisəsinin direktoru Aləmzər İbrahimova ilə həmsöhbət olduq.

Bizə bu muzeyin yaranması barədə ətraflı məlumat verən Aləmzər xanım bildirdi ki, Azərbaycan ədəbiyyatı klassiklərinin, müasir yazıçı və şairlərimizin, ədəbiyyatşünas alimlərimizin ədəbi irsinin toplanması, öyrənilməsi və geniş surətdə ictimaiyyətə çatdırılması məqsədilə Naxçıvan şəhərində Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin yaradılması haqqında Azərbaycan SSR Nazirlər Sovetinin 1965-ci il 25 dekabr tarixli Sərəncamı olmuşdur. 1966-cı ildə muzey üçün bina ayrılmış və eksponat toplanması işinə başlanılmışdır. Muzeyin rəsmi açılışı isə böyük ədib Cəlil Məmmədquluzadənin 100 illik yubileyinin Azərbaycanda geniş qeyd edildiyi dövrdə – 12 iyun 1967-ci ildə olmuşdur. Bu hadisə ilə əlaqədar olaraq "Şərq qapısı" qəzetinin 12 iyun 1967-ci il tarixli buraxılışı da, bütövlükdə, yubilyara həsr edilmişdir.

Qəzetin ilk səhifəsi "Şərqin azadlıq carçısı" adlı məqalə ilə başlanırdı. Məqalədə oxuyuruq: "Bu gün biz Cəlil Məmmədquluzadənin 100 illiyini qeyd edirik. Mirzə Cəlilin yazıçı, jurnalist, mütəfəkkir kimi böyüklüyü ondadır ki, o bütün fəaliyyəti boyu öz xalqını, bütün insanlığı düşündürən, narahat edən məsələlərlə məşğul olmuşdur. Görkəmli söz ustası və böyük vətəndaş Cəlil Məmmədquluzadə öz əsərləri ilə Azərbaycan ədəbiyyatının inkişafına, ictimai dünyagörüşün müəyyənləşməsinə çox böyük və qiymətli xidmət göstərmişdir. Azərbaycan xalqının öz böyük oğlu və sənətkarı Cəlil Məmmədquluzadəyə məhəbbəti hədsizdir".

Qəzetdə, həmçinin Cəlil Məmmədquluzadənin 100 illiyinə həsr edilmiş yubiley tədbirlərinin proqramı dərc edilmişdir. Yubiley tədbirində akademiklər Həmid Araslı, Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Xalq şairləri Süleyman Rüstəm, Balaş Azəroğlu, Mədinə Gülgün, Xalq rəssamı İsmayıl Axundov, Məhəmməd Tağı Sidqinin oğlu Məmmədhəsən Sidqi, nəvəsi Sidqi Səfərov və digər mədəniyyət, elm və ədəbiyyat xadimləri, Naxçıvanda yazıb-yaradan yazıçı və şairlər, qabaqcıl ziyalılar, ictimaiyyətin və muxtar respublika rəhbərliyinin nümayəndələri iştirak etmişlər. Onlardan bir çoxu muzeyin təəssürat kitabına öz ürək sözlərini yazmışdır: "Bizim müdrik Mirzə Cəlil sağ olsaydı deyərdi: "Qədirşünaslıq çox yaxşı şeydir... sağ olun, bir-birinizin qədrini bilin" (Məmməd Cəfər), "Muzey gözəldir, sağ olsun onun təşkilatçıları. Bu muzey Mirzə Cəlil üçün ən yaxşı hədiyyədir" (Abbas Zamanov), "Ədəbiyyat muzeyi böyük yazıçının adına layiq gözəl bir muzeydir. Eksponatlar Azərbaycan ədəbiyyatının görkəmli şəxsiyyətlərinin yaradıcılığından söhbət açır. Muzey işçilərinin zəhməti təqdirəlayiqdir. Onlara yeni uğurlar arzulayıram" (Turan Cavid).

Naxçıvanda Ədəbiyyat Muzeyinin yaradılması bütün naxçıvanlılar üçün çox



böyük, əlamətdar, mədəni və tarixi hadisəyə çevrilmiş, Nizami küçəsində bina ayrılmış, bərpa işləri aparılmış, xalqa yüksək səviyyədə xidmət etmək üçün şərait yaradılmışdır.

Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin 1 iyun 1966-cı il tarixli müvafiq nömrəli əmrinə əsasən İsfəndiyar Əsədullayev Ədəbiyyat Muzeyinin direktoru təyin edilmiş və 1982-ci ilədək muzeyə rəhbərlik etmişdir. Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin 1 noyabr 1982-ci il tarixli müvafiq nömrəli əmrinə əsasən isə Sübhi Kəngərli muzeyə direktor təyin olunmuş, 2012-ci ilin may ayınadək muzeyə rəhbərlik etmişdir. Dövlətimizin muzeylərə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir ki, 2008-ci ildə muzey Nizami küçəsi 49^A-da yerləşən yeni təmir olunmuş binaya köçürülmüşdür.



Muzey direktorunun sözlərinə görə, burada 3 ekspozisiya zalı vardır. Ekspozisiya zallarında Azərbaycan ədəbiyyatı ta qədim dövrlərdən başlayaraq müasir dövrədək əhatə edilmişdir.



Muzey fəaliyyətə başlayan zaman fondda cəmi 98 eksponat var idisə, hazırda eksponatların sayı 20 mini ötmüşdür.



Öyrənirik ki, birinci ekspozisiya zalında qədim dövrlərdən başlayaraq XIX əsrə Azərbaycan ədəbiyyatını özündə əks etdirən 18 guşə mövcuddur. Azərbaycan ədəbiyyatı klassiklərinə həsr olunmuş guşələrdə – Məhsəti Gəncəvinin, Əfzələddin Xaqaninin, Məhəmməd Füzulinin və digərlərinin həyat və yaradıcılıqlarını əks etdirən eksponatlar, portretlər, əsərlərinə çəkilmiş illüstrasiyalar, heykəltaraşlıq nümunələri, yubiley materialları və kitablar nümayiş olunur.

Ekspozisiyanın ikinci zalındakı guşələrdən biri Azərbaycan Respublikasının qurucusu və memarı, Azərbaycan xalqının Ümummilli Lideri, ədəbiyyatımızın, mədəniyyətimizin hamisi Heydər Əliyevə həsr olunmuşdur. Guşədə Ulu Öndərin ictimai-siyasi fəaliyyətindən bəhs edən kitablar, mədəniyyətimizə və ədəbiyyatımıza göstərdiyi diqqət və qayğını əks etdirən fotolar nümayiş etdirilir.

Ekspozisiyanın üçüncü zalı, bütövlükdə, Naxçıvan ədəbi mühitinə həsr olunmuşdur. Bu zalda Naxçıvanda doğulub boya-başa çatan, yaşayıb-yaradan, özlərindən sonra böyük irs qoyub gedən yazıçı və şairlərimizə, ədəbiyyatşünas alimlərimizə 30 guşə ayrılmışdır. Ümummilli Lider Heydər Əliyevin 1974-cü ildə – Naxçıvan MSSR-in 50 illik yubileyinin keçirildiyi günlərdə Ədəbiyyat Muzeyini ziyarət edərkən çəkilmiş fotosu muzeyin ən dəyərli eksponatı kimi ekspozisiyada nümayiş olunur.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin əsas vəzifəsi və qayəsi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin həyat və yaradıcılığını dərindən öyrənmək, geniş təbliğ etməkdən ibarətdir.

Aləmzər İbrahimova onu da diqqətimizə çatdırdı ki, qarşıdan muzeyin 60 illik yubileyi gəlir. Tarix üçün çox da böyük olmayan bu qısa zaman kəsiyində şərəfli bir yol keçmiş bu mədəniyyət müəssisəsi yubileyə ciddi hazırlaşır. Burada böyük sərgi təşkil ediləcək. Sərgidə yazıçı və şairlərimizin fotoşəkilləri, kitabları özünə yer alacaq. Muzeyin daimi ziyarətçiləri olan ədəbiyyat adamları, alimlər, digər sənət xadimləri ilə görüşlər keçiriləcək. Yubileyin əhatəli, yaddaqalan olması üçün əlimizdən gələni edəcəyik.

Biz də buraya üz tutan ziyarətçilərə yüksək səviyyədə xidmət göstərən muzey kollektivini qarşıdan gələn yubiley münasibətilə ürəkdən təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq.

**Aidə İBRAHİMOVA**



## "Xüsusi Təyinatlı Qüvvələr veteranları, şəhid ailələri ilə işin gücləndirilməsi" adlı layihənin icrasına başlanılıb



Naxçıvanda "Xüsusi Təyinatlı Qüvvələr (XTQ) veteranları, şəhid ailələri ilə işin gücləndirilməsi" adlı layihənin icrasına başlanılıb və Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində mühüm ictimai tədbirlərə start verilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsi ziyarət edilib, abidə önünə güllər düzülüb, Ulu Öndərin xatirəsi dərin ehtiramla yad edilib.

"Naxçıvan Saray"da təşkil olunan forumda Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

"Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları" İctimai Birliyinin sədri Bəhruz Məmmədzadə, Milli Məclisin deputatları Vüqar Rəhimzadə, Elçin Mirzəbəyli, Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları qazi Təbriz Zeynalov, Üzeyir Məmmədov və digər dövlət nümayəndələri Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Zəfərdən, Azərbaycan-Türkiyə dostluq əlaqələrindən, şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğıdan söhbət açıblar.

Forumda xatirə hədiyyələri təqdim edilib.

Sonra bədii hissə olub.

Qeyd edək ki, layihə çərçivəsində forum iştirakçıları üçün Naxçıvan şəhərinə infotur proqramı da planlaşdırılıb. Layihənin məqsədi Azərbaycan və Türkiyə arasında mədəni və sosial əlaqələrin möhkəmləndirilməsi, eləcə də xüsusi təyinatlı qazilər və şəhid ailələri arasında əməkdaşlıq və şəbəkələşmənin gücləndirilməsidir.

## Uşaq İncəsənət Festivalının 2-ci seçim turu yekunlaşıb

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Uşaq İncəsənət Festivalı – 2025"in 2-ci seçim turu Naxçıvanda başa çatıb.

İstedadlı uşaqları kəşf etmək, onların yaradıcılığını ön plana çıxarmaq, milli mədəniyyətə olan sevgini gücləndirərək zəngin mədəni irsimizi gələcək nəslə ötürmək məqsədilə təşkil olunan festivalda 19 fərdi, 5 kollektiv nominasiya olmaqla, üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş, 14-17 yaş) ümumilikdə, 24 nominasiya üzrə keçirilən bu festivalda iştirakçılar istedadlarını nümayiş etdiriblər.

Xatırladaq ki, Uşaq İncəsənət Festivalına Naxçıvan Muxtar Respublikası üzrə 1000-dən çox namizəd qeydiyyatdan keçib. Bunlardan 15-i kollektiv, 342 nəfəri isə fərdi nominasiyalar üzrə II turda iştirak hüququ qazanmışdı.

# Zirvələrdən bir parça məktub...



Bəzən insanın içində elə bir hiss baş qaldırır ki, şəhərin səs-küyündən, beton divarların darıxdırıcı təkrarlığından qaçıb könlünü dağlara verərək bir qələm, bir də vərəq götürüb dağlara məktub yazmaq istəyir. Ruhunun bir küncündə tozlanmış səyyah çantasını çıxarıb, arzularını büküb içinə yerləşdirir və yol alır ucsuz-bucaqsız dağlara. Elə bil, bu yol fiziki bir məsafə deyil, ruhun azadlığa doğru səssiz çağırışıdır.

Yollar uzandıqca uzanır... Bir tərəfdə səssizcə müşahidə edilən dağlar, digər tərəfdə zamanın içindən bulaq formasında süzülüb gələn xatirələr. Elə bil, bu yollar bir zamanlar eşqin, sədaqətin və əfsanələrin izlərini daşıyır. Kim bilir, bəlkə, min il əvvəl bir karvan bu yolda susuzluqla sınanıb, bəlkə də, iki aşiq əl-ələ tutaraq eyni dağlara baxıb bir gələcək xəyal edib... Dağları uzaqdan görəndə elə bilirsən ki, bir az daha getsən, əlinlə toxuna biləcəksən o zirvələrə. Amma yaxınlaşdıqca anlayırsan ki, bu zirvələr yalnız fiziki yox, ruhun yetkinliyi ilə ölçülən bir məsafədədir. Hər addımda bir az daha hiss edirsən, onların sükutla danışan dili var. Onlar danışmır, amma anlayırsan ki, səbrin, dərinliyin, əbədi gözəlliyin simvoludur bu dağlar.

Naxçıvanın dağ havası elə bir sehrə malikdir ki, nəfəs aldıqca içini duruldur, sanki bütün çirklər, bütün ağırlıqlar yavaş-yavaş yox olur. Əsən külək həzin musiqi kimi qulaqlarında səslənir. Günəşin yumşaq şüaları üzünə dəyəndə elə bil, bir ana əlidir, nə yandırır, nə də soyudur, sadəcə, toxunur...

Yollarla irəlilədikcə dağlar bir-birini əvəzləyir. Bəziləri yaşılın min bir çalarında, bəziləri qırmızı və qəhvəyi torpağın sanki əl ilə çəkilmiş fırça izləri ilə boyanıb. Hər biri bir tablodur, Tanrının fırçasından çıxmış nadir sənət əsəri kimi... Bəzən elə təbii və simmetrik harmoniya görürsən ki, sadəcə, durub düşünürsən...

Dağların qoynundan axan bulaqlar, hər damlası şəfa kimi... Avtomobilin arxasında qopan toz buludu, geridə qalan həyatın izlərini göyə sovurur. Dağ çiçəklərinin, xüsusilə də kəklikotunun yaydığı o sirli qoxu sanki bir anlıq zamanı öz yerində dayandırır.

Ordubad, Culfa, Sədərək, Şərur, Şahbuz... Sanki qədim bir məbədi qoruyan keşikçilər kimi Naxçıvanın ətrafını dövrəyə alıb. Və o uca zirvələrin timsalında Qapıcıq, Salvartı, Haçadağ, Əlincə, Nəhəcir... Onlar, sadəcə, coğrafi adlar deyil, onlar bu torpağın nəbzini tutan, onun kimliyini qoruyan simvollardır.

İnsan bəzən elə bir nöqtəyə çatır ki, hər addımda dayanmaq, nəfəs almaq, bir fincan çay içib gözlərini dağlara zilləmək istəyir. Amma o çay sıradan bir içki olmamalıdır, dağların ətəklərindən yığılan limon ətirli kəklikotu ilə dəmlənmiş çay olmalıdır. Həmin çay ki qoxusu səni illərlə əvvələ, nənəmin mis samovarına aparır, yaylağa qalxan heyvan sürülərinin səsi fonunda içilən, sadə, amma sirli bir dad...

Bəzən dağ yollarında o qədər irəliləyirsən ki, içində qəribə bir tanışlıq hissi oyanır. Sanki bir film səhnəsindəsən. Elə o anlarda özünü uşaqlıqdan seyr etdiyin Amerika filmlərində hiss edirsən. Böyük Kanyonu seyr edən qəhrəman kimi dayanırsan, baxırsan və anlayırsan: "Ahann, mənim Kanyonum buradır: Əlincəmin zirvəsi, Haçadağımın sükutu, Naxçıvanımın nəfəsi..."

Çünki bəzən insanı xoşbəxt edən nə varacağı zirvədir, nə də geridə qoyduğu yol. İnsanı xoşbəxt edən o zirvəyə baxarkən içindən keçən, adını qoya bilmədiyi hissdir. O hiss ki bir sən başa düşürsən, bir dağlar, bir də qələmə aldığın həmin o məktub...

Rafiq TƏHMƏZ





Avqustun 18-də Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları üçün "Normativ-hüquqi aktlar" informasiya sisteminin (NHAİS) muxtar respublikada tətbiqinə dair ilkin təlim keçirilib.

## NHAİS-in Naxçıvanda tətbiqinə dair təlim keçirilib

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, təlim "Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2023-cü il tarixli Fərmanının icrası çərçivəsində təşkil olunub.

Naxçıvan Muxtar Respublikasında NHAİS-in tətbiq edilməsi normayaratma prosesinin müasir tələblərə uyğunlaşdırılmasına, dövlət idarəçiliyində operativliyin artırılmasına və elektron hökumət prinsiplərinin genişləndirilməsinə xidmət edəcək.

Muxtar respublikada normativ-hüquqi akt layihələrinin elektron qaydada hazırlanması, dövlət qurumları arasında razılaşdırılması və müvafiq yuxarı orqanlara təqdim edilməsi NHAİS vasitəsilə təmin ediləcək. Bu isə qurumların fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılmasına, vaxt itkisinin minimuma endirilməsinə, eləcə də qurumlar arasında koordinasiyanın güclənməsinə şərait yaradacaq.

Qeyd edək ki, təlimdə dövlət qurumlarının 120-dən artıq əməkdaşı iştirak edib. Yeni sistemin tətbiqi muxtar respublikada fəaliyyət göstərən dövlət orqanlarının normayaratma fəaliyyətinin keyfiyyətini yüksəltməklə yanaşı, vətəndaşların və ictimaiyyətin dövlət idarəçiliyinə etimadının artırılmasına da xidmət edəcək.

# Naxçıvanda gələcəyin peşəkarları yetişir

*Naxçıvanda gənc nəslin hərtərəfli yetişməsi, gələcəyin istedadlı və peşəkar mütəxəssisi kimi formalaşması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilir. İstər orta məktəb, istərsə də ali təhsil müəssisələrində gənclərin müxtəlif layihələrə, təcrübə və tədbirlərə cəlb edilməsi də bu baxımdan atılan mühüm addımlardır. Naxçıvan Dövlət Universitetində də bu istiqamətdə əhəmiyyətli işlər görülür. Mövzu ilə bağlı tələbələrlə söhbətimizi məhz bu yöndə qurmağa çalışdıq.*

Naxçıvan Dövlət Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə 2-ci kurs tələbəsi Gülay Kərimli bildirdi: “2024-cü ildə keçirilən qəbul imtahanlarında 650.3 bal toplayaraq bu ixtisasa qəbul olmağım mənim üçün, sadəcə, bir nəticə deyil, bu, illərlə qurduğum arzularımın reallaşmasında atdığım ilk və mühüm addımdır. Hələ orta məktəbdə oxuduğum vaxtlardan riyaziyyata və müəllimlik peşəsinə olan sevgim məni bu yola yönəltdi. Yalnız riyaziyyat deyil, şeir və inşa müsabiqələrində də dəfələrlə fərqlənmişəm. Yaradıcılıq qabiliyyətim və sosial fəallığım Naxçıvan Dövlət Universitetinin təşkil etdiyi bir sıra rəsmi tədbirlərdə də öz əksini tapıb və yüksək qiymətləndirilib”.

Müsahibimiz diqqətimizə çatdırır ki, hazırda bu fəaliyyəti universitetdə də davam etdirir. Müxtəlif tələbə təşkilatlarında aktiv iştirak edir, elmi-praktik konfranslar, beynəlxalq və yerli sosial layihələr, liderlik proqramları və təlim sessiyalarında ön yerlərə çıxır. Bu layihələr Gülaya yalnız nəzəri biliklər yox, eyni zamanda praktik təcrübə, ictimai məsuliyyət və sosial bacarıqlar qazandırıb. O inanır ki, müasir dövrün müəllimi yalnız sinif otağı ilə məhdudlaşmamalıdır. Buna görə də maarifləndirmə tədbirlərində, təhsil və inkişaf sahəsində gənclərə dəstək olan könüllü aksiyalara cəlb olunur. Bu fəaliyyətlər ona komanda işi, təşəbbüskarlıq və liderlik bacarıqları qazandırıb. Naxçıvan Dövlət Universitetinin tələbəsi olaraq burada gördüyü yüksək diqqət və qayğı sayəsində bir çox uğurlar əldə edib.

Gülay Kərimli deyir: “Məqsədim elmi biliklərlə silahlanmış, tənqidi düşünə bilən, Vətəninə və dəyərlərinə bağlı gənclər yetişdirməkdir. Mən müəllimliyi, sadəcə, bir peşə kimi deyil, cəmiyyətin gələcəyini formalaşdıran müqəddəs bir yol kimi görürəm. Bu yolun həm çətin, həm də böyük məsuliyyət tələb etdiyini anlayıram. Amma mən bu yolu sevə-sevə, inana-inana gedirəm. Çünki işığa doğru gedirsənsə, kölgə arxada qalacaq”.

Digər müsahibimiz Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin Beynəlxalq ticarət və logistika ixtisası üzrə IV kurs tələbəsi Muxtar Məmmədov bizimlə söhbətə qoşularaq deyir ki, 2022-ci ildə universitetə daxil olub. Bu illər ərzində yalnız akademik biliklərlə kifayətlənməmiş, eyni zamanda praktiki bacarıqlarını şəkilləndirməyə çalışıb. Peşəkar bacarıqlarının formalaşması istiqamətində gördüyü işlərdən danışan müsahibim deyir: “Naxçıvan Baş Gömrük İdarəsində Rəqəmsal İnzibatçılıq və Hədəf şöbələrində, ardınca isə Naxçıvan Regional “ASAN xidmət” mərkəzində könüllü kimi fəaliyyət göstərmişəm. Bu təcrübələr mənə idarəetmə, sənədlərlə işləmə, vətəndaş məmnuniyyəti və peşəkar ünsiyyət kimi bacarıqlar qazandırmışdır. Şəxsi təşəbbüsüm və təşkilatçılıq bacarıqlarım nəticəsində diplomatiya məzmunlu ixtisaslaşdırılmış tədbir keçirmişəm. Eyni zamanda universitet daxilində ictimai və elmi fəaliyyətlərimə xüsusi önəm verirəm. Universitetin Tələbə Elmi Cəmiyyətinin sədr müavini kimi fəaliyyət göstərmişəm və hazırda fakültə üzrə TEC sədriyəm. Bundan əlavə olaraq Naxçıvan Dövlət Universitetinin Enactus komandasının vitse-prezidenti vəzifəsini icra edirəm. Eyni zamanda Tələbə Həmkarlar İttifaqı Komitəsində Techno Club-un sədri və layihə meneceri kimi fəaliyyət göstərmişəm. Bu çərçivədə müxtəlif ideyaların layihəyə çevrilməsi, komanda işi, resursların idarə olunması və təşkilatçılıq bacarıqları üzrə müəyyən təcrübə qazanmışam. Əlavə olaraq universitet daxilində təlimlərə qoşulmuşam. Elmi məqalələrim beynəlxalq konfranslarda dərc olunmuş və nüfuzlu auditoriyalar qarşısında təqdim etmişəm. 2024-cü ildə “9th International Student Symposium”da The Impact of Climate Change on Global Logistics and Trade” mövzusunda, 2025-ci ildə isə “International Turkic World Economics Conference”da “Orta dəhlizin beynəlxalq ticarət və lojistikadakı rolu” mövzularında çıxışlar etmişəm.




Texnologiya sahəsinə olan marağım məni “Full Stack Developer” sahəsində inkişaf etdirmişdir. Technest Təqaüd Proqramında iştirak edərək 5000 AZN dəyərində təqaüd qazanmış və “Full Stack Developer” sahəsi üzrə bacarıqlarımı inkişaf etdirmişəm. HTML, CSS, JavaScript, React, Python, Django, SQL və API üzrə nəzəri biliklər almış və praktiki layihələr hazırlamışam. Bununla yanaşı, Canva, WordPress, Jotform kimi alətlərdə də sərbəst işləyə bilirəm. Bundan əlavə, NASA seminarlarında iştirak etmiş, 4IR Academy Nation Proqramı çərçivəsində beynəlxalq lisenziya almışam. Coders, Code Academy, Study Section, Saylor Academy, The Open University, Harvard University kimi platformalardan bir çox istiqamətlər üzrə kurslar tamamlamışam. Bank və startap sektorunda Azərbaycan Beynəlxalq Bank, Azər Türk Bank və ADP StartUp proqramlarında iştirak etmişəm.

Təkamül Academy və Robotex layihələri çərçivəsində də texnologiya və innovasiyalar sahəsində təlimlər almışam. Eyni zamanda Hüquq və iqtisadiyyat sahələrində də praktiki təcrübəmi artırmaq üçün Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təşkil etdiyi “Təbii sərvətlərin istifadəsi və məsuliyyətli investisiya” adlı simulyasiyada iştirak etmişəm. Ekspert statusu kimi 1-ci yerə layiq görülmüşəm. Hazırda IELTS imtahanına hazırlaşıram”.

Gələcək məqsədindən danışan Muxtar Məmmədov deyir: “Avropada təhsil alaraq, diplomatiya sahəsində özümü inkişaf etdirərək gələcəkdə ölkəmi beynəlxalq tribunada təmsil etmək istəyirəm. Daim öyrənən, təşəbbüskar, məsuliyyətli və komanda ruhlu bir gənc kimi cəmiyyət üçün faydalı işlər görmək əsas prioritetimdir”.

İstedadlı gənc mütəxəssislər yetişdikcə elmimiz, ayrı-ayrı sahələrimiz də davamlı inkişaf yolunda olacaqdır. Bu yola işıq saçan ziyalılarımıza və onların gələcək davamçılarına uğurlar diləyir, daha böyük nailiyyətlər arzulayırıq.




# Naxçıvanlı güləşçilər Türkiyədə keçirilən turnirdə 17 qızıl medal qazanıblar

Türkiyənin Qars şəhərində Ani şəhərinin fəthinin ildönümünə həsr olunmuş “Ani Cup” adlı güləş turniri keçirilib. Yarışda Türkiyə, Azərbaycan və İrandan, ümumilikdə, 8 komandanın tərkibində 150-dən çox idmançı mübarizə aparıb. Turnirdə Azərbaycanı baş məşqçi Faiq İsgəndərovun rəhbərliyi ilə 23 idmançıdan ibarət Naxçıvan yığma komandası təmsil edib.

Məşqçilər Orxan Əsgərov, Barı Əliyev, həmçinin hakim qismində Nihad Muradov da turnirdə iştirak ediblər.

Güləşçilərimiz turnirdə uğurla çıxış edərək, ümumilikdə, 31 medal qazanmağa müvəffəq olublar. Sərbəst güləşdə 14 qızıl, 4 gümüş və 3 bürünc, yunan-Roma güləşində isə 3 qızıl, 5 gümüş və 2 bürünc medal qazanılıb. Bundan başqa, 12-13 yaş qrupu üzrə həm sərbəst güləş, həm də yunan-Roma güləşində komanda hesabında birincilik əldə olunub. Naxçıvan yığma komandasının 17 qızıl medal qazanan üzvləri redaksiyamızda qonaq oldular. İdmançılar həm yarış zamanı yaşadıqları həyəcanlı anları, həm də qələbə sevincini bölüşdülər.

Onların sözlərinə görə, qardaş ölkə Türkiyədə turnirdə iştirak etmək və bayrağımızı yüksəklərdə dalğalandırmaq qürurverici bir hissdir. Güləşçilər bunun arxasında dayanan ciddi məşqlərdən, məşqçilərinin dəstəyindən və komanda ruhundan bəhs etdilər. Təcrübəli məşqçilərin rəhbərliyi və komandanın birliyi nəticəsində qazandıqları uğurun təsadüfi olmadığını vurğulayan idmançılar gələcəkdə daha böyük nailiyyətlər qazanmaq əzmində olduqlarını qeyd etdilər.

Sərbəst güləş üzrə Naxçıvan yığma komandasının baş məşqçisi Faiq İsgəndərov da söhbətimizə qoşularaq bildirdi: “Çox qürurlu və sevincliyəm. Komandamız qısa müddətdə hazırlaşmasına baxmayaraq, 17 qızıl medalla qələbə qazanaraq vətənə döndü. Məhz qalib olduğumuz o anlarda başa düşdük ki, çəkilən bütün əziyyətlər, yorğunluqlar, zədələr, ağrılar hədər deyilmiş. Qarşıda daha böyük hədəflər bizi gözləyir. Bu gün qazandığımız uğurlar təkcə mənim yox, bir komandanın zəhmətinin nəticəsidir. Növbəti yarışlara daha böyük motivasiya ilə hazırlaşacağıq. Məqsədimiz daha böyük beynəlxalq arenalarda Azərbaycan Bayrağını yüksəklərə qaldırmaqdır. Qarşıda bizi Azərbaycan birinciliyi gözləyir. İnanıram ki, həmin yarışlarda da uğurlu nəticə əldə edəcəyik”.

Söhbətimizə sözügedən yarışda qızıl medal qazanan 16 yaşlı Ələkbər Əsgərovla davam edirik: “Bu yarışa çox qısa zamanda ciddi hazırlaşdım, gecə-gündüz məşqlər etdim və nəhayət, zəhmətimin bəhrəsini gördüm. Döyüşlər çətin idi, amma özümə inandım və sona qədər mübarizə apardım. Məni dəstəkləyən məşqçimə, ailəmə və komanda yoldaşlarıma minnətdaram. Bu qalibiyyət bizi daha da motivasiya edir və növbəti yarışlara daha güclü hazırlaşacağam”.

Qeyd edək ki, sonda gələcək yarışlara daha böyük motivasiya və hazırlıqla yanaşacaqlarını bildirən gənclər ölkəmizi layiqincə təmsil etməyə davam edəcəklərinə söz verdilər. Biz də gənclərə uğurlar arzulayır, onların yeni uğurlarla bizi sevindirməyə davam edəcəklərinə inanırıq.

# Kikboksçularımız Qarsdan 23 medalla qayıdıblar

Son günlərdə Naxçıvan idmançılarının qazandığı uğurlar hərkəsə məlumdur. Bu dəfə onlar Türkiyənin Qars şəhərində keçirilən kikboks turnirində iştirak edib. Ani şəhərinin fəthinə həsr olunmuş yarışa Türkiyə, Azərbaycan, İran, Gürcüstan, Əfqanıstan və Ermənistan olmaqla, 6 ölkədən komandalar qatılıb. Yarışda ölkəmizi “Naxçıvan Araz” kikboksinq klubundan baş məşqçi Elvin Qoçəliyevin rəhbərliyi ilə 23 idmançı təmsil edib. Naxçıvanlı idmançılardan 16-sı kəmər döyüşlərində qalib gələrək qızıl medala layiq görülüb. Klubun daha 7 üzvü isə yarışı gümüş medalla tamamlayıb. Nəsir Əliyev, Rüzgar İbrahimli, Mövlan Seyidov, Oğuz Cavadlı, Ülvü Əliyev, Qurban Kəngərli, İlham Şükürlü, Polad Həsənli, Həsən İsmayılov, Turan Həziyev, Emin Məmmədli, Ziya Məmmədzadə, Ələmdar Nəcəfov, Müşfiq Hüseynov, Adəm Cəfərov və Onur Qafarov kəmər döyüşlərinin qalibi olublar. Mərdan Nağılı, Əli Vəliyev, Eldar Namazov, Ağababa Həsənov, Yusif Qafarov, Əmir Məmmədov və Hüseyn Mehdizadə gümüş medala layiq görülüblər.

Biz də sözü gedən yarışda qalib olan idmançılarımızın və “Naxçıvan Araz” kikboksinq klubundan baş məşqçi Elvin Qoçəliyevin təəssüratlarını öyrəndik. Elvin Qoçəliyev deyir: “Qardaş ölkədə keçirilən turnirdə “Naxçıvan Araz” kikboksinq klubu olaraq böyük bir heyətlə iştirak etdik. Yarış olduqca maraqlı və məşəqqətli keçdi. Turnirdə 6 ölkənin güclü idmançıları iştirak edirdi. Hər döyüşdə yüksək rəqabət vardı. İdmançılarımız da texniki-taktiki hazırlıqlarını ən yaxşı formada nümayiş etdirdilər və rəqiblərinə qarşı üstünlük əldə etdilər. Belə ki, 16 nəfər kəmər uğrunda gedən döyüşlərdə qızıl medala, 7 nəfər gümüş medala layiq görüldü”.

Müsahibimiz bildirdi: “Bu turnirə bir neçə ay öncədən hazırlaşırdıq. İdmançılarımız gündəlik məşqlərdə yüksək nizam-intizam nümayiş etdirdilər. Sadəcə, fiziki hazırlığa yox, eyni zamanda psixoloji dözümlülüyə də xüsusi diqqət ayırırdıq. Çünki beynəlxalq yarışlarda yalnız fiziki güc deyil, həm də güclü iradə qalibiyyət gətirir. Onların bu prinsipə əməl etməsi səbəbi ilə uğurlu nəticə əldə etdik. Qeyd edək ki, bu uğurlu qələbəmizi Vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərimizə həsr etdik. Bu bizi daha da qürurlandırdı. İnanırıq ki, ölkəmizi daha böyük beynəlxalq arenalarda təmsil edib, uğur qazanacığıq”.

Birinci yerin qaliblərindən biri olan 14 yaşlı Həsən İsmayılov da fikirlərini bizimlə bölüşür: “48 kq çəki dərəcəsində çıxış edərək kəmər döyüşlərində rəqibimə qalib gəldim və qızıl medala layiq görüldüm. Bu uğuru əldə etmək üçün çox çalışmışıq. Baş məşqçimiz hər zaman bizə dəstək olub, zəhmətimizi dəyərləndirib. Qələbəmi ailəmə, müəllimlərimə və bütün Vətənimizə həsr edirəm. Gələcəkdə daha böyük yarışlarda da bayrağımızı yüksəltmək istəyirəm”.

“Naxçıvan Araz” kikboksinq klubunun digər üzvləri də bu fikirləri təsdiqləyərək yarışın onlar üçün böyük təcrübə olduğunu vurğuladılar. Onlar qeyd etdilər ki, qazanılan qələbə özünəinamın nəticəsidir. İdmançılar qarşıdakı yarışlarda daha yüksək nailiyyətlər əldə edəcəklərinə, Azərbaycan Bayrağını beynəlxalq arenalarda ucaldacaqlarına inandıqlarını qeyd etdilər. Biz də 23 medalla Naxçıvana qayıdan “Naxçıvan Araz” kikboksinq klubunun üzvlərinə uğurlar arzu edirik.

**“Şərq qapısı”**



# "Yay məktəbi"ndə istedadlar iş başında














Yay tətili günləridir. Bu dövr şagirdlərin istirahəti ilə yanaşı, onların asudə vaxtlarının səmərəli və faydalı keçməsi baxımından da əhəmiyyətlidir. Bu məqsədlə təhsil müəssisələri və məktəbdənkənar tərbiyə ocaqları bir sıra tədbirlər planı əsasında fəaliyyət göstərirlər. Yeniyetmə və gənclərə qayğı göstərmək, onların cəmiyyətə düzgün inteqrasiyasına dəstək olmaq bu qurumların üzərinə mühüm vəzifələr qoyur. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil edilən "Yay məktəbi"də bu baxımdan seçilir.

Şagirdlər burada fəal iştirak edərək yay tətilini həm öyrədici, həm də əyləncəli şəkildə keçirirlər. Həmçinin mərkəzdə təşkil edilən "Yay məktəbi"ndə fəallıq göstərirlər. Qeyd edək ki, mərkəz 2009-cu il mart ayının 19-dan etibarən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi kimi fəaliyyətini davam etdirir. Həmin dövrdə mərkəzin binası əsaslı şəkildə təmir edilərək məktəblilərin və pedaqoji heyətin istifadəsinə verilmişdir. Hazırda mərkəzdə yeniyetmə və gənclərin müxtəlif bacarıqlara yiyələnməsi, istedadlarının inkişaf etdirilməsi üçün şərait yaradılıb.

Biz də yay məktəblərinin fəaliyyəti ilə yaxından tanış olmaq üçün üz tuturuq həmin ünvana. Mövzu ilə bağlı mərkəzin tədris işləri üzrə direktor müavini Minayə Axundova ilə görüşdük. Yay məktəbləri haqqında danışan Minayə xanım bildirdi ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən uşaq yaradıcılıq mərkəzlərində təşkil olunan yay məktəbləri hər il minlərlə uşağın yay tətilini mənalı, əyləncəli və yaddaqalan keçirməsinə şərait yaradır. "Yay məktəbi" həm Təhsil Nazirliyinin, həm də mərkəzin yay iş planına uyğun olaraq iyun ayının 15-dən iyulun 31-nə və avqustun 12-dən sentyabrın 15-nə qədər fəaliyyət göstərir. "Yay məktəbi"nin əsas məqsədi uşaqların boş vaxtlarını səmərəli təşkil etmək, onları müxtəlif intellektual, yaradıcı və sosialyönümlü fəaliyyətlərə cəlb etməklə sağlam istirahətlərini təmin etməkdir. Dərs yüklərinin olmaması valideynlərin və uşaqların bu məktəblərə marağını daha da artırır.

Müsahibimiz bildirdi ki, "Yay məktəbi" uşaqların həm şəxsi inkişafına, həm də sosiallaşmasına müsbət təsir göstərir. Eyni zamanda burada keçirilən tədbirlər onların istedadlarının üzə çıxarılmasına, özlərini ifadə etmələrinə və sağlam həyat tərzini seçmələrinə təkan verir. Belə təşəbbüslər, təhsil və tərbiyə sahəsində çalışan hər kəsin birgə fəaliyyəti nəticəsində uşaqlar üçün daha məhsuldar və maraqlı bir yay tətili yaşatmağa imkan yaradır. Minayə xanım qeyd etdi ki, "Yay məktəbi"ndə iştirak üçün uşaq sayı məhdudiyyəti yoxdur. Bu isə valideynlərə və uşaqlara geniş seçim imkanı verir. Dərnək məşğələlərinin dayandırıldığı bu müddətdə uşaqlar üçün maraqlı tədbirlər təşkil olunur. Belə ki, intellektual oyunlar, film nümayişləri, gəzinti və ekskursiyalar, əlavə olaraq oxu günləri və piknniklər buna daxildir.

Uşaqlar tədris ili boyunca maraqlarına və bacarıqlarına uyğun olaraq müxtəlif dərnəklərdə iştirak edirlər. Bunlara "Rəsm", "Dulusçuluq", "Fortepiano", "Qum sənəti", "Bədii gimnastika", "Nağara", "Aplikasiya", "Bədii tikmə" və başqaları aiddir. Eyni zamanda valideynlərin elmi yönümlü maraqları da nəzərə alınaraq "Mental aritmetika", "Sürətli oxu və hesablama" kimi dərnəklər də təşkil edilir. Həmçinin müsahibimiz əlavə edir ki, mərkəzin dərnək üzvləri Naxçıvanda keçirilən tədbir, festival və konsert proqramlarında fəal iştirak edir. Xüsusilə "Bədii gimnastika" dərnəyi üzvlərinin Bakı şəhərində keçirilən yarışlarda qazandığı uğurlar bizi qürurlandırır. Bu layihələr uşaqlar üçün yeni biliklər və unudulmaz xatirələr vəd edir.

Qeyd edək ki, uşaqlarınızı təkcə yay tətillərində deyil, bütün tədris ili boyu dərnəklərə yönləndirmək onların inkişafı üçün olduqca vacibdir. Burada uşaqlar yalnız yeni bacarıqlar qazanmır, həm də pis vərdişlərdən uzaq durur, sağlam və sosial cəhətdən aktiv bir mühitdə formalaşırlar.

**"Şərq qapısı"**

## Çempionlar Liqası: "Qarabağ" "Ferentsvaroş"la oyunda inamlı qələbə qazanıb



"Qarabağ" UEFA Çempionlar Liqasının pley-off mərhələsinin ilk oyununda "Ferentsvaroş"a (Macarıstan) qalib gəlib. "Qroupama Arena"da keçirilən matçda Ağdam təmsilçisi 3:1 hesablı qələbəyə sevinib.

Qarşılaşmada hesabı meydan sahibləri açıblar. 29-cu dəqiqədə Barnabas Varqa adını tabloya yazdırıb.

İkinci hissədə dönüş yaradan qonaqlar 50-ci dəqiqədə Marko Yankoviçlə "status-kvo"nu bərpa ediblər. 67-ci dəqiqədə diqqət mərkəzinə düşən Kevin Medina "köhlən atlar"ı hesabda irəli çıxarıb. 85-ci dəqiqədə isə rəqib qapısına yol tapan Musa Qurbanlı yekun hesabı müəyyənləşdirib.

Qeyd edək ki, komandalar arasında cavab matçı avqustun 27-də Tofiq Bəhramov adına Respublika Stadionunda baş tutacaq. Qalib tərəf UEFA Çempionlar Liqasının, məğlub olan isə Avropa Liqasının əsas mərhələsinə qatılacaq.

## NDU-nun startap komandaları qalib olub




Regionlarda innovasiyanın inkişafına təkan verən "İnnostart" layihəsinin qalib startapları bəlli olub.

Layihənin icrası çərçivəsində 2024-cü ilin oktyabr ayından etibarən Naxçıvan Dövlət Universitetinin yaxından dəstəyi ilə muxtar respublikada iki dəfə hakaton təşkil olunub. Hakatonların yekununda seçilən qalib komandalar üçün investisiya imkanları yaradılıb, eyni zamanda onların "Grand Final" mərhələsinə hazırlıqları məqsədilə 3 aylıq təlim proqramları keçirilib.

20 avqust 2025-ci il tarixdə isə Bakı şəhərində keçirilən "İnnostart" Grand Final tədbirində Naxçıvan Dövlət Universitetinin tələbələrindən ibarət dörd komanda ölkənin müxtəlif ali təhsil müəssisələrinin komandaları ilə birlikdə final mərhələsində mübarizə aparıb.

Layihə çərçivəsində finala yüksələn 17 startap arasından "Backlify", "SaleX", "Specdeaf", "İmYen" startapları ümumi dəyəri 50 min manat olan mükafat fonduna layiq görülüblər. Ümumilikdə, 4 komanda qalib gəlib ki, onlardan ikisi NDU-nu təmsil edən komandalar olub. IMYEN və Specdeaf komandalarının hər biri 12 500 manat investisiya dəyərində mükafat qazanıblar. Qalib komandalar Türkiyənin Bilişim Vadisində inkubasiya proqramında iştirak etmək hüququ əldə ediblər.

## İtmişdir

İctimai Səhiyyə Xidmətinin Naxçıvan Regional Mərkəzinə məxsus avtomobilin 75 AC 397 nömrəli dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu Axaməd kəndində yaşamış Əsədov Nəsrəddin Əsgər oğlunun adına verilmiş JN-99 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kənd sakini Cəfərova (Həsənova) Sevinc Nemət qızına məxsus $815^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Çalxanqala kənd sakini Ağammədov Bəymämməd Əzim oğlunun adına olan JN-$044^{A}$ nömrəli, 10300018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu sakini Ağabalayev Əli Ramiz oğlunun adına olan A-017162 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Muradov Nəriman Tehran oğlunun adına olan MM-0070315 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Mehdiyev Musa İsa oğlunun adına olan JN-$078^{A}$ nömrəli, 10200088 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kükü kəndində yaşamış Nəcəfova Maral Əmir qızının adına olan JN-$257^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Qızıl Qışlaq kəndində Məmmədova Gülnaz Mehdi qızının adına olan JN-$216^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Şirəliyev Fəxrəddin Rza oğlunun adına olan JN-175 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu Dərəkənddə yerləşən Xudayarov Nurəddin Qurban oğlunun adına olan JN-253 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kənd sakini Salmanova Tərifə Ələkbər qızının adına olan JN-$153^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Tumaslı kənd sakini Mahmudov Albert Həsən oğlunun adına olan JN-116 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor müavini:
MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 222

Nömrəyə məsul: Aidə İbrahimova, Bülbül Quliyeva, Elnurə Cəfərova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.